10 may 2023 №35 (2004)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## 10 may, 100 il və əbədi xatirə...

### Ulu öndər Heydər Əliyevi sonsuz minnətdarlıqla yad edirik



Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olub. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Memarlıq fakültəsində təhsil alıb. 1941-ci ildə başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməyib.

Heydər Əliyev 1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində müxtəlif məsul vəzifələrdə çalışıb. 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib. 1949-1950-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsinin qiyabi şöbəsini bitirib. 1958-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi (DTK) Əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə DTK-nın sədr müavini təyin edilib. 1967-ci ildə Azərbaycan DTK-nın sədri vəzifəsinə təyin edilib və həmin ildə də ona general-mayor rütbəsi verilib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (MK) 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan MK-nın Birinci katibi seçilib və respublikanın rəhbəri olub. 1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin (Sov. İKP MK) Siyasi Bürosunun üzvlüyünə namizəd seçilib.

1982-ci ilin dekabrında Siyasi Büronun üzvü seçilib və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Heydər Əliyev bu vəzifədə işləyərkən SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib.

davamı səh. 2-də

## Mədəniyyət paytaxtımızın yeni növrağı

### Şuşada açılış və təməlqoyma mərasimləri keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşada bir sıra açılışlarda və təməlqoyma mərasimlərində iştirak ediblər.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Şuşa Elektrik Şəbəkələri İnnovativ Texnologiyalar Mərkəzinin və Atatürk küçəsinin lövhəsinin açılışını edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov məlumat verib ki, mərkəzdə müxtəlif gücdə transformatorlar, 35 kV-luq yeni yarımstansiya inşa olunub, müasir standartlara cavab verən elektrik avadanlıqları, SCADA dispetçer idarəetmə sistemi quraşdırılıb. Burada həmçinin günəş enerjisi ilə çalışan panellər quraşdırılıb.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Atatürk küçəsində aparılacaq bərpa-yenidənqurma işləri barədə məlumat verib. Bildirib ki, küçənin uzunluğu 714 metr, eni 11 metrdir.

Mayın 9-da Şuşa şəhərinin Qarabağ küçəsində inşa olunacaq qeyri-yaşayış binasının təməli qoyulub. Prezidentə əvvəlcə Qarabağ və Sadıqcan küçələrində görüləcək işlər barədə məlumat verilib. Bildirilib ki, Qarabağ küçəsində inşa ediləcək dörd mərtəbədən ibarət yaşayış binasında yerləşəcək mənzillərdən 24-ü ikiotaqlı, 6-sı isə üçotaqlıdır. Qeyri-yaşayış binası isə A və B korpuslarından, həmçinin ofis binasından ibarət olacaq. Binanın ikinci mərtəbəsində avtodayanacaq yerləşəcək.




Dövlətimizin başçısı tərəfindən rəmzi olaraq "Qarabağ" adı verilən küçə Şuşanın mərkəzini əhatə edir. Yuxarı Gövhər ağa məscidi, "Qarabağ" hoteli, Prezidentin Şuşa rayonunda Xüsusi nümayəndəliyinin binası bu küçədə yerləşir. Küçənin yenidən qurulması zamanı Şuşanın tarixi-milli memarlıq üslubunun qorunması xüsusilə diqqətdə saxlanılır.

Prezident daha sonra Molla Pənah Vaqif və Pənahəli xan küçələrinin kəsişməsində lövhələrin açılışını edib.

davamı səh. 2-də

## Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı başlayıb

Mayın 9-da Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada növbəti "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı başlayıb.

Şuşa şəhəri budəfəki "Xarıbülbül" festivalına həm də "Türk dünyasının mədəniyyət paytaxtı" kimi ev sahibliyi edir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi 2012-ci ildən həyata keçirilir. Şuşa bu missiyanı ötən ilin dekabrında Türkiyənin Bursa şəhərindən qəbul edib.




Üç gün (9-11 may) sürəcək "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan, Özbəkistan (o cümlədən bu ölkənin Qaraqalpaqıstan Muxtar Respublikası), Macarıstan, Moldovanın Qaqauz Yeri muxtar bölgəsi, Rusiya Federasiyasının Altay, Xakasiya, Saxa (Yakutiya), Tatarıstan, Tıva respublikaları, Şimali Kipr Türk Cümhuriyyəti təmsil olunur.

Mayın 12-də "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı – 2023" tədbirlərinin rəsmi açılışı olacaq.

"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının ilk günü isə səhər saatlarında iştirakçı ölkələrin sənətkarlıq nümunələrinin və milli mətbəxinin təqdimatı olub.

Dövlət rəsmilərinin, tanınmış mədəniyyət, incəsənət və elm xadimlərinin qatıldıqları təqdimat hər kəsdə xoş təəssürat yaradıb.

Sonra Xan qızı Natəvanın evinin həyətində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı çərçivəsində Şuşa Dövlət Musiqili Dram Teatrının hazırladığı "Dəli Domrul" tamaşasının premyerası olub.

davamı səh. 2-də

## "Heydər Əliyev – 100: sevimli əsərlər"

Mayın 8-də Azərbaycan Milli İncəsənət Muzeyində Ümummilli liderin yubileyinə həsr olunan "Heydər Əliyev – 100: sevimli əsərlər" adlı sərginin açılışı keçirilib.

Muzeyin direktoru Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyev çıxış edərək dedi ki, yüzdən artıq eksponatın nümayiş olunduğu sərgidə Ulu öndərin yaradıcılıqlarına xüsusi sevgi və hörmətlə yanaşdığı görkəmli fırça və tişə ustalarımızın əsərləri yer alıb. Muzeyin fondunda qorunan və Heydər Əliyevin hər zaman sevərək izlədiyi əsərlər Ulu öndərin 100 illik yubileyi ilə əlaqədar ölkəmizlə yanaşı xaricdə də nümayiş olunur.



davamı səh. 3-də

## Mədəniyyət xadimlərinə Prezident təqaüdü və Prezident mükafatı verilib

Prezident İlham Əliyevin mayın 6-da imzaladığı sərəncamlarla Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə 18 nəfər Prezidentin fərdi təqaüdünə, 150 nəfər isə Prezident mükafatına layiq görülüb.

səh. 3

## "Tarixin salnaməsi"



Azərbaycan Milli Xalça Muzeyində "Heydər Əliyev İli"nə həsr olunmuş "Tarixin salnaməsi" adlı sərgi açılıb.

Sərgidə muzeyin Ənənəvi texnologiya şöbəsində toxunan "Tarixin salnaməsi" xalçası da nümayiş olunur. Xalçanın leytmotivi Ulu öndər Heydər Əliyevin məşhur "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamıdır.

səh. 5

## "Avroviziya-2023" başlandı...

Mayın 9-da Böyük Britaniyanın Liverpul şəhərində "Avroviziya – 2023" beynəlxalq mahnı yarışmasına start verilib. Bakı vaxtilə gecəyarısı başlayan müsabiqənin birinci yarımfinalında Azərbaycan təmsilçiləri – "TuralTuranX" dueti də yer alıb.

Tural və Turan Bağmanov qardaşları ifa etdikləri "Tell me more" ("Mənə daha çox danış") mahnısının həm də bəstə müəllifidirlər.



Birinci yarımfinalda Azərbaycanla yanaşı Xorvatiya, İrlandiya, Latviya, Malta, Norveç, Portuqaliya, Serbiya, Çexiya, Finlandiya, İsrail, Moldova, Niderland, İsveç, İsveçrə də yer alıb.

Azərbaycanda İctimai Televiziya vasitəsilə yayımlanan "Avroviziya – 2023"ün ikinci yarımfinalı 11 mayda, finalı isə 13 mayda keçiriləcək.

## Bizim ellər yerindədi

Günəş üfüqə qalxmadan çıxdıq Bakıdan. Daha çox uşaqlar idi yol yoldaşlarım. Avtobusa yarıyuxulu minən al-əlvan geyimli bu uşaqların əhatəsində sevinc və həyəcanım bir az da artdı.

Maşın təzəcə yola düşmüşdü ki, onların xumarlanmış gözləri yumuldu. Balacaları nəvazişlə qoynuna çəkən böyüklər də kiridilər. Ortaya bir sükut çökdü. Yol uzandıqca Kürdəmir və Yevlaxın ara-sıra yaşıllıqlarının, şoran torpağa inad insan əməyinin cücərtdiyi sıralanmış əkin sahələrinin "bələdçi"liyində "Tərtərə xoş gəlmisiniz!" lövhəsindən də ötdük. Avtobusdakılar sevincək gah sağa, gah da sola boylanırlar. "Sən hələ bura bax, elə bil xalça səriblər", "Səngərlərin içindən çıxan biçənəklər necə də böyükdülər", "Gör ermənı tankını necə vurmuşuq", "Bəlkə düşüb şəkil çəkdirək", "Olmaz! Görmürsən, hər yanda mina xəbərdarlığı ilə bağlı lövhələr basdırılıb", "Sağ olsunlar, bax üzüaşağı təmizləyə-təmizləyə gəlirlər (minaaxtaranları göstərir), gələn dəfə düşərik" kimi sualsız cavablar, cavabsız suallar bir-birinə qarışır. Dolanbaclı yollar bizi daha yüksəkliyə – üzü dağlara çəkir.

davamı səh. 4-də

Ulu öndərin yubileyi münasibətilə klassik musiqi gecəsi



səh. 3

Heydər Əliyev rəssamlara nələri tövsiyə etmişdi?

səh. 6



Azad Zəngilanda ilk sənət müsabiqəsi

səh. 4

# 10 may, 100 il və əbədi xatirə...



*əvvəli səh. 1-də*

1987-ci ilin oktyabrında Sov. İKP MK-nın Baş katibi Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutub.

1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. 1990-cı ilin iyulunda Azərbaycana qayıdıb, Naxçıvanda yaşayıb, həmin ilin sentyabrında Azərbaycan Ali Sovetinə deputat seçilib.

Heydər Əliyev 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilib. Bu vəzifədə 1993-cü ilin iyununadək çalışıb. 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında Heydər Əliyev partiyanın sədri seçilib.

1993-cü ilin may-iyununda Azərbaycanda hakimiyyət böhranının nəticəsi olaraq ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalqın tələbi ilə o zamankı ölkə rəhbərliyi tərəfindən rəsmən Bakıya dəvət edilib. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilib. 1998-ci il oktyabrın 11-də növbəti seçkilərdə yenidən dövlət başçısı seçilib.

2003-cü il dekabrın 12-də ABŞ-nin Klivlend Klinikasında vəfat edib. Dekabrın 15-də Bakıda Fəxri xiyabanda dəfn edilib.

Heydər Əliyev iki dəfə Sosialist Əməyi Qəhrəmanı adı, keçmiş SSRİ-nin, eləcə də bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunub, həmçinin bir çox beynəlxalq mükafatlara layiq görülüb, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru seçilib.

Müasir Azərbaycan tarixinin bütöv bir qərinəsi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. O, müstəqil Azərbaycanın xilaskarı kimi dövlətimizi zamanın ağır sınaqlarından çıxararaq davamlı inkişafının təməlini qoyub.

2003-cü ildən sonra Heydər Əliyevin dövlətçilik siyasətini layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı qüdrətli dövlətə çevirdi, Ali Baş Komandanı olduğu müzəffər Azərbaycan Ordusu ilə Ulu öndərin ən böyük arzusunu – ata vəsiyyətini yerinə yetirdi. Bu gün sərhədləri bütöv Azərbaycan Heydər Əliyevin xatirəsinə ən böyük abidədir.

# Prezident İlham Əliyev əfv sərəncamı imzalayıb

Prezident İlham Əliyev mayın 8-də "Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında" Sərəncam imzalayıb.

Əfv sərəncamı ümumilikdə 801 nəfərə şamil edilib. O cümlədən 463 məhkum azadlıqdan məhrumetmə cəzasından, 220 şəxs azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilib.

Bu, şamil edildiyi şəxslərin dairəsinə görə müstəqil Azərbaycan Respublikasının tarixində qəbul edilmiş ən böyük əfv aktıdır.

# Mədəniyyət paytaxtımızın yeni növrağı

## Şuşada açılış və təməlqoyma mərasimləri keçirilib

*əvvəli səh. 1-də*

Bildirilib ki, Molla Pənah Vaqif küçəsinin uzunluğu 2473 metrdir, eni isə yol yatağına uyğun olaraq 10-15 metr aralığında dəyişir. Pənahəli xan küçəsinin uzunluğu 864 metr, eni isə yol yatağına uyğun olaraq 10-13 metr təşkil edəcək.

Dövlət başçısı Cıdır düzündə Mir Möhsün Nəvvab Qarabağinin (1833-1918) Heydər Əliyev Fondu tərəfindən bərpa olunan məzarını ziyarət edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışında iştirak ediblər.

Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir.








Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə məlumat verib. Bildirilib ki, XIX əsrin Azərbaycana bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biri, şair, rəssam, xəttat, musiqi nəzəriyyəçisi, ensiklopedist alim Mir Möhsün Nəvvab Qarabağinin Şuşa şəhərindəki məzarı və qəbirüstü abidəsi bərpa olunub. Şuşa şəhəri işğal altında olduğu illərdə Mir Möhsün Nəvvab Qarabağinin Cıdır düzündə yerləşən məzarı ermənilər tərəfindən tamamilə dağıdılmışdı. Heydər Əliyev Fondu bu ilin mart ayından ərazidə müvafiq işlərə başlayıb və qəbirüstü abidə bərpa olunub.

***

Diqqətə çatdırılıb ki, 2021-ci ilin oktyabr ayından etibarən malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib.

Kompleksə daxil olan evin və məscidin binalarının damörtükləri yenilənib, tavanlar bərpa edilib. Malikanə kompleksinin dağılmış divarı bərpa olunub, zədəli divarda bərkitmə işləri aparılıb. Evin döşəmə daşlarının dağılmış yerləri, pilləkəni yenidən qurulub, divar və tavanlardakı rəsmlər eskiz layihələri üzrə bərpa edilib. Məscidin "güldəstə"si restavrasiya olunub. Yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib.

Malikanə kompleksində muzey ekspozisiyası qurulub. "Qarabağ zadəganının evi" mövzusundakı ekspozisiya tərtib edilərkən XIX əsrin sonu – XX əsrin əvvəllərində Qarabağ zadəganının evinin interyeri, ziyalı şəxsin həyat tərzinin xüsusiyyətləri əsas götürülüb. Ekspozisiyada Azərbaycan Milli Kino-Foto Sənədləri Arxivi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun materialları, həmçinin elmi ədəbiyyat mənbə qismində istifadə edilib. İnteryerdə dövrün fotoçərçivələrinə salınmış məlumat və portretlər asılıb. İnteryer təəssüratını pozmamaq üçün foto və məlumatların çərçivələri dövrə uyğun tərtib edilib. Fotolar Şuşanın tanınmış zadəgan nəsilləri – Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aiddir.

Malikanədəki otaqları milli əşyalarla yanaşı, avropasayağı məişət əşyaları da bəzəyir. Otaqlar dövrün eksponatları ilə XIX əsrin sonu – XX əsrin əvvəllərinə aid interyer qaydalarına uyğun tərtib edilib. Burada ziyarətçi özünü XIX əsrin sonu – XX əsrin əvvəllərində yaşamış azərbaycanlı zadəganının evindəki kimi hiss etmiş olur. Ekspozisiyanın tərtibatı zamanı 150-dən çox əntiq əşyadan istifadə edilib.

Xatırladaq ki, işğaldan azad olunan ərazilərdə, o cümlədən Şuşada Heydər Əliyev Fondu tərəfindən bir sıra layihələr həyata keçirilir və onların bir qismi başa çatıb. Bu sıraya Şuşada Molla Pənah Vaqifin Muzey-Məqbərə Kompleksinin, Vaqifin büstünün yenidən qurulması, Üzeyir Hacıbəylinin heykəlinin yenidən ucaldılması və digər layihələr daxildir.

# Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı başlayıb

*əvvəli səh. 1-də*

Tamaşa Altay Məmmədovun "Kitabi-Dədə Qorqud" dastanının "Duxa Qoca oğlu Dəli Domrulun boyu" əsasında qələmə aldığı eyniadlı pyes əsasında hazırlanıb. Meydan üslubunda səhnələşdirilmiş tamaşada dünyanın faniliyi, məhəbbətin ucalığı ön plana çəkilir. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, rəssamı Valeh Məmmədov, rejissor assistenti Zəhra Salayeva, musiqi tərtibatçısı Ağasəlim Feyzullayevdir.





Qeyd edək ki, festival günlərində müxtəlif məkanlarda "Bayraq", "Qəhrəmanlıq", "Qarabağ məclisi", "Poeziya", "Dədə Qorqud", "Dərvişlər", "Molla Nəsrəddin" mövzularında guşələr yaradılıb. Bu guşələrdə müxtəlif bədii təqdimatlar, tamaşalar göstəriləcək.

Eləcə də Üzeyir Hacıbəylinin heykəlinin qarşısı, Bülbülün Ev-Muzeyi və digər məkanlarda konsert proqramları, sərgilər və film nümayişləri olacaq.

Festivalın baş səhnəsi isə ənənəvi olaraq Cıdır düzündə qurulub.

Mayın 9-da günün ikinci yarısında burada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılış konserti olub. Azərbaycanın, eləcə də festivalda iştirak edən Türk dünyası musiqi kollektivlərinin və ifaçıların çıxışları maraqla qarşılanıb. Sonda Türk dünyasının sənətçiləri birlikdə "Qarabağ" kompozisiyasını ifa ediblər.

# Sloveniyada əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin xatirəsi yad edilib



Azərbaycan xalqının igid oğlu, əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı, "Mixaylo" ləqəbli Mehdi Hüseynzadənin (1918-1944) anadan olmasının 105 illiyi Sloveniyanın Nova Qoritsa regionunda təntənəli şəkildə qeyd edilib.

Mərasimlərə Sloveniyanın dövlət rəsmiləri, yerli sakinlər, müharibə veteranları, eləcə də Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov, ölkəmizin Avstriya, Sloveniya və Slovakiyadakı səfiri Rövşən Sadıqbəyli, Milli Məclisin deputatları Rafael Hüseynov, Ağalar Vəliyev qatılıblar.

Əvvəlcə Mehdi Hüseynzadənin abidəsinin və xatirə muzeyinin yerləşdiyi Nova Qoritsanın Şempas qəsəbəsində anım mərasimi keçirilib. Azərbaycanın və Sloveniyanın Dövlət himnləri səsləndirilib.

Azərbaycan nümayəndə heyətinin üzvləri çıxışlarında Mixaylonun xatirəsini əziz tutduğuna görə Sloveniya dövlətinə və xalqına Azərbaycan hökuməti və xalqı adından təşəkkür ifadə ediblər. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə 2007-ci ildə əfsanəvi kəşfiyyatçının bu kənddə abidəsinin, daha sonra isə xatirə muzeyinin yaradıldığı diqqətə çatdırılıb. Vurğulanıb ki, 2011-ci ildə Azərbaycan və Sloveniya prezidentləri İlham Əliyev və Danilo Türkün iştirakı ilə memorial muzeyin açılması Mixaylonun iki ölkə arasında dostluğun rəmzi olduğunu nümayiş etdirib.

Tədbir mədəni proqramla davam edib. Yerli məktəblilər Sloveniyanın azadlığı uğrunda döyüşmüş qəhrəmanların şərəfinə mahnı və şeirlər, musiqi parçaları səsləndiriblər.

Sonra iştirakçılar Mixaylonun xatirəsinə yaradılmış muzeylə tanış olublar.

Nümayəndə heyəti, həmçinin Mixaylonun 1944-cü ilin noyabrında alman nasistləri ilə ağır döyüşdən sonra həlak olduğu Vitovlye kəndinə baş çəkib, onun ömrünün son dəqiqələrini keçirdiyi ərazidə yerləşən xatirə lövhəsi önünə əklil qoyublar.

İştirakçılar həmçinin Trnovo Memorial Parkını ziyarət edərək burada İkinci Dünya müharibəsi zamanı həlak olmuş azərbaycanlıların xatirəsinə ucaldılmış memorial lövhənin önünə əklillər qoyublar. Sonda Çepovan məzarlığında Mehdi Hüseynzadənin məzarı ziyarət olunub.

# Faşizm üzərində tarixi Qələbənin 78-ci ildönümü tamam oldu

Mayın 9-da İkinci Dünya müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 78-ci ildönümü tamam oldu.

Azərbaycan faşizm üzərində Qələbəyə böyük töhfələr verib. 1941–1945-ci illərdə respublikamız 600 mindən çox oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib, yüzlərlə həmyerlimiz partizan dəstələrinin tərkibində vuruşub.

Bu Qələbədə Azərbaycan nefti həlledici rol oynayıb. Azərbaycan Sovet Ordusu üçün yanacaq-sürtgü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz edilib.

Müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabit müxtəlif orden və medallarla təltif edilib.

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Ümummilli lider Heydər Əliyev müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, hər il dövlət başçısının sərəncamları ilə 9 May – Qələbə bayramı ərəfəsində onlara, eləcə də müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə maddi yardımlar göstərilir.

Zaman bizi İkinci Dünya müharibəsi tarixindən uzaqlaşdırdıqca o müharibənin canlı qəhrəmanlarının sırası da seyrəlir. Bu da həyatın bir gerçəyidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2023-cü ilin may ayına olan məlumatına görə, hazırda Azərbaycanda İkinci Dünya müharibəsinin iştirakçısı olmuş cəmi 57 nəfər həyatdadır.

Azərbaycan xalqı artıq üçüncü ildir ki, 1941–1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsində əldə olunmuş böyük Zəfərin, erməni faşizmi üzərində qalibiyyətin doğurduğu sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Xalqımızın 30 il uğrunda mübarizə apardığı ədalət Zəfər çaldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941–1945-ci illər müharibəsində canlarından keçmiş bütün qəhrəmanların xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

# "Heydər Əliyev – 100: sevimli əsərlər"

## Görkəmli fırça və tişə ustalarının əsərlərindən ibarət sərgi açılıb

əvvəli səh. 1-də

Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov diqqətə çatdırdı ki, istedadlı insanları heç bir zaman diqqətdən və qayğıdan kənar qoymayan Ulu öndər müasirləri olan sənətkarlarla daim ünsiyyət qurub, onlarla dəfələrlə şəxsən görüşərək yaradıcılıq fəaliyyətləri ilə maraqlanıb, eləcə də yeni rəssamlar nəslinin yetişməsinə böyük stimul yaradıb. Bununla dahi rəhbər Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoyub.

Qeyd edildi ki, Azərbaycanın dövlətçilik tarixində silinməz iz qoyan Ulu öndər Heydər Əliyev elm, mədəniyyət və incəsənətimizin inkişafında da əvəzsiz xidmətləri olan dahi şəxsiyyətdir. Heydər Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində mədəniyyətimiz, milli-mənəvi dəyərlərimiz beynəlxalq aləmdə tanınmağa başladı, incəsənət xadimlərinin yaradıcılıq



üfüqləri daha da genişləndi. Təsviri sənət sahəsi də bu inkişaf prosesində əsas mövqedə idi. Özü də bir zamanlar rəssam olmaq arzusunda olan Heydər Əliyev bu sənətin yaradıcılarına xüsusi diqqət və qayğı ilə yanaşır, onları emalatxanalarında ziyarət edir, sərgi və abidələrin açılışında şəxsən iştirak edirdi.

Üç ay davam edəcək sərgidə Ümummilli liderin həmin görüşlərdən və tədbirlərdən xatirə qalan fotoşəkilləri ziyarətçilər tərəfindən maraqla qarşılandı.

Tahir Salahov imzalı rəngkarlıq və Ömər Eldarovun müəllifi olduğu heykəltəraşlıq əsərlərində təsvir olunan Heydər Əliyevin obrazları sərginin xüsusi maraq doğuran eksponatlarından idi. Elm, incəsənət, ictimai həyatımıza böyük töhfələr verən dahi şəxsiyyətlərin obrazlarının həyat tapdığı portret nümunələri, təbiətimizin füsunkar gözəlliklərini əks etdirən mənzərələr, bol-bərəkətli Azərbaycan torpağının nemətlərini canlandıran natürmortlar...

Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Hüseyn Əliyev, Oqtay Sadıqzadə, Elmira Şahtaxtinskaya, Maral Rəhmanzadə, Mircavad Cavadov, Tofiq Cavadov, Rasim Babayev və başqa görkəmli rəssamların təfəkkürünün bədii məhsulları olan bu əsərlər tamaşaçılarda zəngin təəssürat yaratdı.

**Lalə**





# Ulu öndərin yubileyi münasibətilə klassik musiqi gecəsi

Bakı Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə mayın 5-də Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Dövlət Akademik Filarmoniyasında klassik musiqi gecəsi təqdim olundu.

Tədbirdə dövlət qurumlarının rəhbərləri, Milli Məclisin deputatları, paytaxt ictimaiyyətinin nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Səhnədə quraşdırılmış monitorlarda Ulu öndərin məşhur "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" fikrinin yer aldığı çıxışının lent yazısı nümayiş olundu.

Sonra Mustafa Mehmandarovun dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri dahi bəstəkarın "Koroğlu" operasından "Uvertüra"nı səsləndirdi.



Tədbirdə diqqətə çatdırıldı ki, Ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə gəldiyi ilk illərdən etdibarən klassik və simfonik musiqiyə insanların marağının və bu sahədə biliklərinin artırılması məqsədilə filarmoniyada musiqi axşamları təşkil olunub. Həmin konsertlərdə dövlət xadimləri, xalq təsərrüfatının bütün sahələrinin rəhbər işçiləri, elm və mədəniyyət xadimləri, partiya, həmkarlar ittifaqları, bir sözlə, o vaxtkı siyasi elita dinləyici kimi iştirak edib. Vaxtının məhdudluğuna baxmayaraq, Ulu öndərin özü də çox zaman həmin konsertləri dinləyib.

Heydər Əliyevin sənət adamları ilə görüşləri, həyat və fəaliyyətinin unudulmaz anlarını əks etdirən foto və video görüntülərlə müşayiət olunan gecədə orkestrin və Xalq artisti Gülbacı İmanovanın bədii rəhbəri olduğu Azərbaycan Dövlət Xor Kapellasının müşayiəti ilə Üzeyir Hacıbəyli, Qara Qarayev, Müslüm Maqomayev, Cahangir Cahangirov, Arif Məlikov, Niyazi, Vasif Adıgözəlov, Sevil Əliyeva, Kamal, Ruslan Zeynalov və başqalarının əsərləri və xalq mahnıları səsləndi.

Xalq artistləri Fidan Hacıyeva, Azər Zeynalov, Əməkdar artistlər Ramil Qasımov, İlham Nəzərov, Anar Şuşalı, Ceyla Seyidova, Xəyyam Mustafazadə, Afaq Abbasova, Sahib Paşazadə və ifaçı Amil Həsənoğlu tərəfindən səsləndirilən musiqi nömrələri alqışlarla qarşılandı.

**L.Azəri**

# "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı keçiriləcək

Heydər Əliyev Fondunun təşəbbüsü ilə iyunun 18-25-də "Muğam aləmi" ("Space of Mugam") 6-cı Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

Festival Bakı və Şuşa şəhərlərində təşkil olunacaq. Azərbaycanı festivalda aprelin 24-27-də keçirilən Milli Muğam Müsabiqəsinin qalibləri – xanəndə və instrumental ifa kateqoriyası üzrə birinci yerin mükafatçıları Mirəli Sarızadə və Vaqif Təhməzov təmsil edəcəklər.

Festivalın açılışı iyunun 18-də Heydər Əliyev Sarayında olacaq. İyunun 25-dək davam edəcək festival çərçivəsində Bakının mədəniyyət ocaqlarında, həmçinin iyunun 23-də Şuşada müxtəlif tədbirlər – müsabiqə, mühazirə və təqdimatlar, konsertlər, sərgi və simpoziumlar təşkil ediləcək. Festivalın sonuncu günündə 24 saat bir-birini əvəz edən ifaçıların iştirakı ilə canlı muğam marafonu olacaq.

"Muğam aləmi" festivalında qalibləri beynəlxalq münsiflər heyəti müəyyən edəcək. İyunun 25-də mükafatlandırma mərasimi və qala-konsert keçiriləcək.

Xatırladaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən beynəlxalq muğam festivalları təşkil olunur.

# "Sən elə bir zirvəsən..." bədii qiraət müsabiqəsinə yekun vurulub

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə teatr aktyorları arasında Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Sən elə bir zirvəsən..." adlı bədii qiraət müsabiqəsi keçirilib.

Müsabiqəyə 50-dək müraciət olub. Onların arasından seçilən 11 qiraətçi (10 teatrın təmsilçisi) mayın 3-də ATXİ-də keçirilən dinləmələrdə münsiflər heyəti tərəfindən qiymətləndirilib.

Mayın 5-də "Sən elə bir zirvəsən..." bədii qiraət müsabiqəsinin nəticələri elan olunub.

Münsiflər heyətinin qərarı ilə İzaməddin Bağırov (Sumqayıt Dövlət Dram Teatrı) 1-ci yerə (diplom və 500 manat pul mükafatı), Xanirə İsgəndərova (Şuşa Dövlət Musiqili Dram Teatrı) 2-ci (diplom və 400 manat pul mükafatı), İlkin Mehdiyev (Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı) 3-cü yerə (diplom və 300 manat pul mükafatı) layiq görülüb.

Bundan əlavə, 4 iştirakçı münsiflər heyətinin xüsusi diplomu və pul mükafatı, daha 4 nəfər isə iştiraka görə diplom və 200 manat pul mükafatı ilə təltif olunub.

# "Bir axşam Bakıda"

## Tanınmış müğənni Cəlal Abbasovun konserti



Mayın 7-də Beynəlxalq Muğam Mərkəzində tanınmış müğənni Cəlal Abbasovun "Bir axşam Bakıda" adlı konserti keçirilib.

Müğənninin ifasında xalq, bəstəkar, klassik və estrada kompozisiyaları tamaşaçılar tərəfindən böyük hərarətlə qarşılanıb. Onun bir neçə dildə səsləndirdiyi mahnılar da musiqisevərlərdə maraq doğurub.

Cəlal Abbasovun birlikdə çalışdığı heyətə paytaxtın populyar musiqiçiləri daxildir. Uzun illərdir ki, konsertlərdə musiqiçilərin solo ifaları səbirsizliklə gözlənilir və bu ənənə dəyişmir. Sevilən pianoçu Nizami Əliyevin konsert boyu improvizələri, caz elementləri xüsusi alqışlanır. Musiqi axşamında ifa olunan vətənpərvərlik ruhlu mahnılar da tamaşaçılarda böyük coşqu yaradıb.

Cəlal Abbasov 2008-ci ildə keçirilən gənc ifaçıların birinci "Bakı gecələri" müsabiqəsində Qran-pri mükafatını qazanıb. Eləcə də yerli və beynəlxalq musiqi festivallarının iştirakçısı və qalibi olub. O, 2009-cu ildə Bakıda keçirilən bədii gimnastika üzrə 25-ci Avropa çempionatının himnini ifa edib. 2011-ci ildə TÜRKSOY-un dəstəyi ilə Türkiyədə keçirilən musiqi həftəsi çərçivəsində xalq və pop musiqisi ifaçılarının 38-ci beynəlxalq festivalının qalibi olub. Musiqiçi Heydər Əliyev Sarayında və Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında solo konsertlərlə çıxış edib.

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

**1.** Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abdullayeva Xurşud Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağakişiyev Rauf Fikrət oğlu
Ağasiyev Tural Aydın oğlu
Ağasoy Həsən Vəliqulu oğlu
Ağayev Miraslan Əzizəli oğlu
Ağayev Ziya Səbuhi oğlu
Allahverdiyev Ceyhun Kərim oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Arsentyeva Olqa Anatolyevna
Aslanova Elmira Ramazanovna
Atakişiyeva Asya Çingiz qızı
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva Töhfə Ağaəli qızı
Bağırova Sənubər Yusufovna
Baliyeva Natalya Gennadyevna
Barateliya Naala Raulyevna
Bayramov Təyyar Allahverdi oğlu
Bəşirov Xanlar Əyyub oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Samir Qadir oğlu
Dubovitskaya Mariya Aleksandrovna
Eyvazov Nadir Samir oğlu
Eyvazova Ayan Fuad qızı
Eyyubov Musa Eyyub oğlu
Əbdülsəmədova Zemfira Feyzulla qızı
Əbilova Könül Allahverdi qızı
Əfəndi Elçin Fərahim oğlu
Əfəndiyeva Xəlilova İlahə Əhsan qızı
Əhmədov Bağır Kənan oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov İlyas Əhməd oğlu
Əhmədova Aynur Əhməd qızı
Ələkbərzadə Mehriban Zaur qızı
Əlili Hüseyn Azad oğlu
Əliyarov Elvin Bahadur oğlu
Əliyev Ələkbər Həsən oğlu
Əliyev İqbal Adil oğlu
Əliyev Samir Asəf oğlu
Əliyev Sərvər Bəhlul oğlu
Əliyeva Nərgiz Arzu qızı
Əliyeva Ülkər Sabir qızı
Əlizadə Şəhla Seidşah qızı
Əmirbəyova Rita Cəmil qızı
Əsgərov Əsgər Əkbər oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Fətullayeva Aygün Bəhruz qızı
Gözəlova İradə Vaqif qızı
Hacıyeva Sevil İnşalla qızı
Hadı-zadə Kərəm Əmiralı oğlu
Haxverdiyev Behruz Əyyub oğlu
Heybətov Anar Mithət oğlu
Həbibov Nicat Əli oğlu
Həbibova Azadə Həsən qızı
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Kərim Abbas oğlu
Həsənova Natavan Mikayıl qızı
Həsənova Səbirə Nasif qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynov Elnur Bəhrəmxan oğlu
Hüseynov Rövşən Maqsud oğlu
Hüseynova İlahə Həsən qızı
Hüseynova Kamilla Fikrət qızı
Xanlarova Mehriban Aslan qızı
Xasiyev Səmədzadə Nadir oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbişov Tahir Fidayə oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanov Əbülfəz Hüseyn oğlu
İmranova İnna Aleksandrovna
İskəndərova Sənubər Sabir qızı
İsmayılova Şəhla Əli qızı
İsrafilov Fərhad Ramazan oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimduxt Rövşən Ramazan oğlu
Kərimov Elnur Umbay oğlu
Kərimov Loğman Seyfulla oğlu
Qəmbərli Ayaz Vahab oğlu
Quliyev Aydın Baloğlan oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Elxan Əli Bala oğlu
Quliyev Ələsgər Kamran oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyeva Səbinə Kasumovna
Quliyeva Şəlalə Şahvələt qızı
Qurbanov Cahangir Qafar oğlu
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mehmandarov Mustafa Adil oğlu
Mehrəliyev Vüsal Akif oğlu
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədli Şamil Kamil oğlu
Məmmədov Anar Ramiz oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədova Günel Əzizağa qızı
Məmmədova Həcərxanım Cavanşir qızı
Məmmədzadə Nəsimi Əyyub oğlu
Məmmədzadə Səbinə Namiq qızı
Məsimov Qurban Abdulla oğlu
Mikayılov Mikayıl Şamil oğlu
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəyev Rafiq İsmayıl oğlu
Mirzəzadə Nicat Qərib oğlu
Musayeva Şükufə İmran qızı
Mustafayev Arzu Əhməd oğlu
Mustafayev Vüsal Sədaqət oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Nağıyev Qasım Gəncalı oğlu
Nəbiyeva Mehri Rasim qızı
Nəsibova Rada Ziyad qızı
Nəzərov İlham İslam oğlu
Niftəliyeva Nurbəniz Nurəddin qızı
Nuriyev Cavad Fərhad oğlu
Oduşev Timur Vladislavoviç
Orucova Naidə Mülük qızı
Orucova Sevda Nəbi qızı
Osmanov Fuad Tacəddin oğlu
Ömərov Gümrah Rza oğlu
Poladov Əkrəm Nicad oğlu
Rəsulov İsrafil Fərhad oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rüstəmov Rüstəm Qərib oğlu
Rzayeva Nigar Azər qızı
Rzayeva Vəfa Əliseyran qızı
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sadıqov Anar Babalı oğlu
Salahov Əbülfət Yusif oğlu
Salmanov Nicat Fərhad oğlu
Seyidova Ceyla Uran qızı
Səfərova İlahə Qiyas qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Samir Səməd oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şahaliyev Elxan Savalan oğlu
Şirinov Asif Əhməd oğlu
Şirinov Aslan Adil oğlu
Tağızadə Mahir Tahir oğlu
Vahabzadə Səbinə Qulam qızı
Vəliyeva Leyli Fətulla qızı
Vəliyeva Nigar Natiq qızı
Yahyayev Taleh Saleh oğlu
Zaliyeva Mehriban Əskərali qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zəki Mehriban Mürvət qızı
Zülfüqarova Əminə Cahangir qızı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3.** "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 10 may tarixli 3246 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 5, maddə 488) 1-ci hissəsi ləğv edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 may 2023-cü il**

# Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq qərara alıram:

**1.** Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abbasov Tariyel Abbasqulu oğlu
Axundova Nigar Vəli qızı
Aqalliyay Pellumb Mustafa oğlu
Əliyev Zamiq Balarza oğlu
Əsədov Əsəd Fərux oğlu
Həsənov Ənvər Cəfər oğlu
Həsənov Vidadi İsmail oğlu
İbrahimbəyova Anna Yuryevna
İsmayılov Qurban İbrahim oğlu
Qasımov İntiqam Böyükağa oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Quliyeva Xalidə Camal qızı
Mustafayev Vaqif Behbud oğlu
Nəzirli Şəmistan Əmiraslan oğlu
Rüstəmov Aslan Mahmud oğlu
Süleymanlı Şamil Kamran oğlu
Şıxlinskiy Ziya Ənvər oğlu.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 6 may 2023-cü il**

# Xocavənd rayonunun Tuğ kəndi və Hadrut qəsəbəsi turizm mərkəzlərinə çevriləcək



Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 5-də Xocavənd rayonuna səfər ediblər.

Dövlətimizin başçısına və birinci xanıma Tuğ kəndində həyata keçiriləcək turizm layihələri barədə məlumat verilib. Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev bildirib ki, Tuğda üç istiqamətdə – mədəni turizm, ekoturizm və aqroturizm layihələrin həyata keçirilməsini planlaşdırır.

Tuğda ənənəvi Azərbaycan memarlığına işğal dövründə çox müdaxilə edilib və bəzi tikililər vandalizmə məruz qalıb. Buna görə də ilkin olaraq ümumi sahəsi 1464 kvadratmetr olan tikililərin konservasiyası və konsolidasiyası işləri ilə yanaşı, 6515 kvadratmetrlik ətraf ərazisinin abadlaşdırılması nəzərdə tutulur. Bundan başqa, kəndin mərkəzi hissəsində yerləşən, ümumi sahəsi 450 kvadratmetr olan mövcud tarixi tikililərin bərpa edilərək Turizm İnformasiya Mərkəzi və şərab dequstasiya yeri kimi istifadə edilməsi nəzərdə tutulur. Tarixən şərabçılıq destinasiyası kimi tanınan Tuğ kəndi Xocavənd və Füzuli rayonlarının üzüm sahələrindən toplanan məhsuldan alınan şərabları ilə məşhur olub. Şərab zavodunun ümumi sahəsi 1300 kvadratmetrdir. Zavod üçün müasir turizm konsepti tətbiq ediləcək.

Prezident və birinci xanımın iştirakı ilə Tuğ kəndində inzibati mərkəzin və ilk yaşayış məhəlləsinin təməli qoyulub. Məhəllədə birinci mərhələdə 24 tarixi fərdi ev bərpa ediləcək, 95 ev isə yenidən tikiləcək. Növbəti mərhələlərdə isə məhəllədə 244 yeni fərdi evin tikilməsi nəzərdə tutulur. Bir sıra binaların – inzibati bina, klub-icma mərkəzi, məktəb, bağça və 15 fərdi evin tikinti-bərpa işlərinin 2024-cü ilin martında tamamlanması planlaşdırılır.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva daha sonra Hadrut qəsəbəsində 360 şagird yerlik tam orta məktəbin bərpa layihəsi ilə tanış olub, qəsəbədə salınacaq ilk yaşayış məhəlləsinin, həmçinin inzibati mərkəzin təməlinin qoyulması mərasimlərində iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma Hadrut qəsəbəsinin turizm inkişaf konsepsiyası barədə məlumat verilib. Qeyd olunub ki, Hadrutun tarixi hissəsində bərpa və konservasiya işləri çərçivəsində ilkin dövrdə Qafqaz Albaniyasının tarixi-mədəni irsinə aid məbədin, onun yanındakı üç tikilinin bərpası, həmin ərazinin abadlaşdırılması planlaşdırılır. Xristian məbədi Hadrutun tarixi hissəsinin əsas memarlıq abidəsidir. Qafqaz Albaniyası dövründə həmin məbəd müxtəlif dövrlərdə bir neçə dəfə bərpa edilib. Məbəd sonuncu dəfə 1621-ci ildə bərpa olunub. Bu məbədin divarlarında daha qədim dövrdə tikilmiş abidənin daşlarından istifadə edilib. Buna görə də Qafqaz Albaniyası dövrünə aid məbəd və onun ətrafında Dövlət Turizm Agentliyi tərəfindən bərpa və abadlaşdırma işləri görülməzdən əvvəl burada elmi-tədqiqat və arxeoloji qazıntıların aparılması nəzərdə tutulur. Çünki işğal dövründə Hadrutda olan bir sıra abidələr kimi, bu məbədin də tarixi mənşəyinə ermənilər tərəfindən müdaxilələr edilib.

Hadrutun mərkəzi hissəsində yerləşən tarixi mülkün bərpa edilərək Turizm Məlumat Mərkəzi kimi fəaliyyət göstərməsi nəzərdə tutulur.

***

Prezident İlham Əliyev mayın 5-də Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 8,2 kilometrlik hissəsinin açılışında da iştirak edib. Uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Yol işğaldan azad edilmiş Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindən keçir, Hadrut qəsəbəsi və Cəbrayıl şəhəri də daxil olmaqla həmin rayonların 20-yə yaxın yaşayış məntəqəsini əhatə edəcək.

# Füzulidə yeni yaşayış məntəqələrinin təməli qoyulub



Mayın 5-də Prezident İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun açılışında iştirak edib. Ümumi uzunluğu 12,3 kilometr olan yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak ediblər. Kəndin layihələndirilən ümumi ərazisi 178 hektardır. Ümumilikdə 565 fərdi ev tikiləcək və hər bir evin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Bu mərhələdə kənddə 280 fərdi evin tikilməsi, eləcə də zəruri sosial infrastrukturun yaradılması nəzərdə tutulur. Tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimində də iştirak edib. Kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Birinci mərhələdə Dədəli kəndində 327 fərdi ev tikiləcək. Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri fəaliyyət göstərəcək. Tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində görülən inşaat işlərinin gedişi ilə tanış olublar. Ümumi sahəsi 8,9 hektar olan yaşayış kompleksi 38 binadan ibarətdir. Dördmərtəbəli, beşmərtəbəli, altımərtəbəli və yeddimərtəbəli binalarda ümumilikdə 846 mənzil olacaq. Onların 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur. Tikinti işlərinin 2023-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.

***

Dövlət başçısı və birinci xanım Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində də iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi barədə məlumat verilib.

Prezident və birinci xanım Özbəkistanın dövlət başçısı Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə də tanış olublar. Ötən il başlanılan tikinti işlərinin bu ilin dekabrında başa çatdırılması planlaşdırılır.

***

Prezident səfər zamanı "Azərişıq" ASC-nin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışında iştirak edib, Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub.

# "Tarixin ən böyük savaşı"

Mayın 9-da İkinci Dünya müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 78-ci ildönümü tamam oldu. Bu münasibətlə bölgələrdəki mədəniyyət müəssisələrində tədbirlər keçirilib.



Masallı rayon Mərkəzi Kitabxanasında keçirilən tədbirdə qeyd olunub ki, Azərbaycan xalqı faşizm üzərində Qələbəyə böyük töhfələr verib. 1941-1945-ci illərdə xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə həlak olub. 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Masallı Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları faşizm üzərində Qələbənin ildönümü münasibətilə rayonun Viləş kəndində II Dünya müharibəsi veteranı Cənnət Teymurovu ziyarət ediblər.

Quba rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə "9 May faşizm üzərində Qələbə Günüdür" adlı viktorina keçirilib.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində əlamətdar günlə əlaqədar sənədli film nümayiş olunub.

Şirvan şəhər Mərkəzi Kitabxanasında "Böyük Vətən müharibəsində Azərbaycan xalqının rolu" adlı tədbir keçirilib. Çıxış edənlər müharibədə azərbaycanlıların göstərdikləri şücaətlərdən söz açıblar.

Oğuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi "Ölməzlər və unudulmazlar" adlı tədbir keçirib. Muzeyin əməkdaşları, Kərimli kənd məktəbinin müəllim və şagirdləri həmin kənddəki II Dünya müharibəsinə həsr olunmuş abidənin önünə tər çiçəklər düzüblər. Sonra müharibə haqqında məruzə dinlənilib, "Vətən eşqi" adlı videoçarx nümayiş olunub.

Yevlax şəhər Mədəniyyət Mərkəzi şəhər MKS ilə birlikdə Qələbə Günü münasibətilə "Tarixin ən böyük savaşı" adlı dəyirmi masa təşkil edib.

**Hazırladı: N.Məmmədli**

# Azad Zəngilanda ilk sənət müsabiqəsi

## Uşaq İncəsənət Festivalı çərçivəsində Ağalı kəndində tədbir keçirildi

Xəbər verdiyimiz kimi, Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi Uşaq İncəsənət Festivalının birinci mərhələsi davam edir.




Festival çərçivəsində mayın 5-də Zəngilan rayonunun Ağalı kəndində tədbir təşkil olundu.

Ağalı kənd tam orta məktəbində keçirilən tədbirdə Zəngilan rayonunda qeydiyyatda olan 20 uşaq xanəndəlik sənəti, Azərbaycan xalq çalğı alətləri ifaçılığı (tar), piano ifaçılığı və bədii qiraət nominasiyaları üzrə çıxış etdilər.

Çıxışlar Əməkdar artist, xanəndə İlkin Əhmədov, bədii qiraət ustası Xəzər Süleymanlı, pianoçu Fəqan Həsənli və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 33 nömrəli Uşaq musiqi məktəbinin müəllimi, tar ifaçısı Emin Bəhramlıdan ibarət münsiflər heyəti tərəfindən dəyərləndirildi.

Tədbir çərçivəsində həmin uşaqlar üçün münsiflər heyəti tərəfindən ustad dərsləri də keçirildi. Sonda xatirə şəkilləri çəkdirildi.

Xatırladaq ki, üç turdan ibarət, 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilən festivalın respublikamızın bütün rayon və şəhərlərindən, o cümlədən Naxçıvan Muxtar Respublikasından 27 minədək iştirakçısı var.

Festivalın birinci mərhələsi aprel-iyun aylarını əhatə edir.

**Nurəddin**







# Bizim ellər yerindədi

## Əvvəlkindən daha gözəl və xoşbəxt. Amma bu hissə qovuşanadək keçilən yol da var axı...

*əvvəli səh. 1-də*

### Bənzəyir çəməndə közə lalələr

Yazda gözəl yurdumun hər qarışı bir başqa mənzərəli olur. Gül-çiçəklər əlvan ləçəklərini ətirlərinə qatıb aləmə səpələyirlər. Amma onların heç biri lalələr qədər məna yüklü olmur, məncə. Ələlxüsus da Qarabağ ellərində. Bilmirəm, bəlkə bu mənim duyğu selində qapılıb getməyim üçün gəldiyim qənaətdir. Amma nə edim ki, bu hissin təsirindən çətin çıxıram. Tərtərdən Suqovuşan istiqamətinə burulanda talalardakı bu qıpqırmızı ipək kimi mənzərəni gördükcə köksümün daha həyəcanla vurduğunu hiss elədim. Axı, Suqovuşan uğrunda ən qanlı döyüşlər bu istiqamətdə olub.

Bu yolu həftədə 2-3 dəfə gedib-gələn sürücü də sanki fikrimə şərik çıxır. "Elə bil azad torpaq da günü-gündən oyanıb özünə gəlir. Heç keçən il bu qədər lalə bitməmişdi. Maşallah, sevinir də çöl-çəmən", – deyib günəşdən qamaşan gözlərini bir az da qıyıb daha irəlidəki çöl zanbaqlarının bənövşəyi xalı sərdiyi talanı da nişan verir. Möcüzədir, vallah. Yolun sağı qırmızıya, solu isə yaşıl bənövşəyi örpəyə bürünüb. Səma da mavi, apaydın. Budur, günəş də təpədəki, göyün düz ortasındakı yerinə doğru tələsir. Biz ona, o da bizə bələdçilik edə-edə.

### Səssizliyin səsində

Talışa ikinci gəlişim idi. Yenə də eyni hisslər: həyəcan, sevinc, kədər. Və bunların hamısından daha güclü qürur. Fəxarətin verdiyi məmnunluq hissi daha ağır basır. Göz işlədikcə yaşıllıqlar, sıx meşələrin, başı hələ də qarlı dağların, lap uzaqdan gözə ilişən şiş qayaların, həzin-həzin axan çayların, cəh-cəh vuran quşların əhatəsində bir də bir dəlisov səssizlik hakimdir buralara. Amma buralara qayıdan qaynar həyat mənzərələri – qırmızı damlı ağ evlərdən çıxan adamların üz-gözündəki dağ adamlarına xas saflığı, tikildikcə tikilən Suqovuşanın, Talışın həndəvərində dolaşan müxtəlif texnikaların gurultusu, həyət-bacalardan gələn toyuq-cücə səsləri bu səssizliyə bir başqa meydan oxuyur.

Durub üzü dağlara, sıx meşələrə baxdıqca iki hiss bir-biri ilə döyüşür. Biri təptəzə qənbər döşənmiş yollarla yeni həyata doğru qaçan uşaqların xoşbəxt qəhqəhələrinin verdiyi sevinc, digəri isə bu günləri görməyəcəklərini bilə-bilə sinəsini bu vətən torpağına sipər edən oğulların, bənzərsiz qəhrəmanların itkisinin verdiyi ağrıdır. Düşündükcə adamın bağrının başı göynəyir. Bizdən çox-çox əvvəl bu torpaqlara ayaq basan, sinəsi bu torpaqlarda dağım-dağım olan, arzuları bu çöllərdə yarımçıq qalan, son nəfəslərini də uğrunda sevərək canlarından keçdikləri bu torpaqların daşında, otunda, yal-yamacında verən oğulları düşünürsən.

Təzə Talışın köhnə evləri, top-tüfəngdən yaralı evləri də bir başqa hekayə danışır.

Nəzərlərim yenə uçuq damları yararaq Tanrı ilə danışmağa dartınan ağaclara sataşır. İllər öncə dağılan evlərin yerində ucalan ağacların düşmənə inad ucalığında özümə toxtaqlıq verirəm. "Tez olun, teatr başladı" çağırışı ilə yanımdan quş kimi qanadlanan uşaqların arxasına düşüb mən də Talış kənd orta məktəbinin pilləkənləri ilə yuxarı – akt zala qalxıram.

### "Qurd keçinin Şəngülüsünü yeyəndə"...

Azərbaycan Dövlət Kukla Teatrı, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə Tərtər rayonunun işğaldan azad olunmuş Talış kəndində konsert-tamaşa təşkil edib.

Aksiya "Heydər Əliyev İli" və peşəkar Azərbaycan milli teatrının yaranmasının 150 illiyi ilə bağlı silsilə tədbirlər çərçivəsində təşkil edilib. Kuklaçılar repertuarlarındakı maraqlı nümunələrdən biri – "Şəngülüm, Məngülüm" tamaşası ilə çıxış edirlər.

Görkəmli şair Mikayıl Müşfiqin məşhur mənzum nağılı əsasında hazırlanan mono kukla tamaşasının rejissoru Anar Məmmədov, quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Elza Seyidcahandır.

Teatrın aparıcı aktrisası Ülviyyə Əliyeva bu tamaşada canlı planda Nağılçı ilə yanaşı beş kuklanın (Şəngülüm, Məngülüm, Ana keçi, Canavar və Dəmirçi) obrazında da tamaşaçı qarşısına çıxdı.

Alqışlarla onu yola salan tamaşaçılar teatrın nəzdində fəaliyyət göstərən "Oyuq" teatr-studiyasının vokalçılarını da eyni coşqu ilə qarşıladılar. Balaca istedadlı böyük ürəklilərin Vətən, Qarabağ, yurd, əsgər nidalı şux nəğmələri zala toplaşan hər kəsi valeh edə bildi.

### Sular qovuşan yerdə

Avtobusdan düşən hər kəs sevincək günəşin almaz kimi bərq vurduğu suyun kənarına – Suqovuşan adlı möcüzənin başına yığışdı. İlahi, yaşıl çəmənlərin, göz işlədikcə bitib-tükənməyən meşələrin, bir-birinə dayaq olan sıralı dağların yamacındakı bu möcüzə necə gözəl imiş. Dərin və vahiməli görünüşlü su cazibəsinin içində bir də izahsız bir aram, saflıq, paklıq var. Günəşin küləklə yarışında qulağıma aktrisa Ülviyyə Əliyevanın həzin səsində "Rahatlıq gəzmirəm mən, gedək üzü küləyə..." nidalı sədası gəlir. Suyun üzərindəki körpüdə qollarını açan "Oyuq"un bədii rəhbəri Səidə Haqverdiyeva "Səni sevirəm, Vətən. Bax, belə qucaqlayıram, bağrıma basıram", – deyib uşaq kimi qəhqəhə çəkir. Beləcə, hərə bir yana çəkilib öz nəğməsini oxuyur. Özü də hamısı həzin. Hər kəs sulara öz hisslərini, arzularını, nə bilib, bəlkə də sirlərini danışır. Lap "dərdimi suya danışdım..." misallı.

Səfər boyu bizi sevgi və qayğı ilə müşayiət edən Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşı Leyla Sarabi qeyri-ixtiyari dediyim "Suqovuşan məni içindən çıxa bilmədiyim dərinliyinə çəkir" sözümə "Qəribədir, mən də hər bura gəlişimdə o ovqata köklənirəm. Yəqin suların yaddaşı, energetikası, "eşidib-gördüklərinin" ifadə şəklidir bu", – deyib gülümsədi.

Günəş sular üzərində hakimiyyətində idi. Cilovunu buraxmış hisslərimiztək. Amma yol bizi geri, gəldiyimiz yönə çağırırdı. Yenidən, yepyeni şövq ilə qayıtmaq üçün...

**Həmidə Nizamiqızı**
**Bakı-Tərtər-Bakı**

# "Tarixin salnaməsi"

## Milli Xalça Muzeyində Ulu öndərin 100 illiyinə həsr olunmuş sərgi açılıb



Azərbaycan Milli Xalça Muzeyində "Heydər Əliyev İli"nə həsr olunmuş "Tarixin salnaməsi" adlı sərgi açılıb. Mayın 5-də gerçəkləşən tədbirdə yeni toxunmuş eyniadlı xalçanın və "Milli sərvətimiz" sənədli filminin təqdimatı olub.

Muzeyin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikova xalça haqqında məlumat verib. Bildirib ki, muzeyin Ənənəvi texnologiya şöbəsində toxunan "Tarixin salnaməsi" xalçasının leytmotivi Ulu öndər Heydər Əliyevin məşhur "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamıdır. Xalçada dahi şəxsiyyətin hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan mədəniyyətinə, xalqımızın milli irsinə, xüsusilə də xalça sənətinə böyük diqqət və qayğısı simvolik dildə öz əksini tapıb. Bu unikal sənət nümunəsinin əsas elementi olan ağac isə soy-kökümüzün rəmzi kimi təqdim olunur.





Mədəniyyət nazirinin müavini Murad Hüseynov Ulu öndərin Azərbaycan dövləti qarşısındakı tarixi xidmətlərindən danışıb, mədəniyyətimizin inkişafına göstərdiyi diqqət və qayğının vurğulayıb: "Bu gün təməlini Ulu öndər Heydər Əliyevin qoyduğu müstəqil respublikamız öz tarixinin ən önəmli və qürurlu dövrlərini yaşayır. Heydər Əliyev siyasətinin layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycan dünyanın və regionun sayılıb-seçilən dövlətlərindən birinə çevrilib. Heydər Əliyev Azərbaycan mədəniyyətinin həqiqi himayədarı idi. Mədəniyyətin elə bir sahəsi yoxdur ki, onun qayğı və himayəsindən kənarda qalsın. Xalça Muzeyi də yarandığı ilk illərdən başlayaraq onun diqqəti ilə əhatə olunub. Bu diqqət sayəsində muzeyin kolleksiyası nadir sənət əsərləri, qədim sənətkarlıq nümunələri ilə zənginləşib".

Murad Hüseynov 5 may tarixinin ölkəmizdə "Xalçaçı günü" kimi qeyd olunduğuna diqqət çəkərək bu qiymətli sənəti müasir dövrdə də yaşadan bütün xalçaçıları əlamətdar gün münasibətilə təbrik edib.

UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Seymur Fətəliyev ölkəmizin təşkilatla münasibətlərindən danışıb, sərgi haqqında fikirlərini bölüşüb. Qeyd edib ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində, xalça sənəti də daxil olmaqla, bir sıra mədəni irs nümunələrimiz UNESCO-nun müxtəlif siyahılarına salınıb. Eyni zamanda xalça sənətinin təbliği istiqamətində çoxsaylı layihələr reallaşdırılıb.

Yunus Əmrə İnstitutu Bakı nümayəndəliyinin rəhbəri Selçuk Karakılıç belə bir sərginin təşkilindən məmnunluğunu ifadə edib, düşüncələrini bölüşüb.

Sonra Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Milli sərvətimiz" adlı film nümayiş olunub. Sənədli filmdə dahi rəhbərin mədəniyyətin, incəsənətin, eləcə də Azərbaycan xalça sənətinin inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən kino və fotoxronika materiallarından istifadə olunub. Burada Lətif Kərimov, Kamil Əliyev kimi görkəmli xalçaçı-rəssamlar haqqında kadrlar, həmçinin 1983-cü ildə Bakıda keçirilmiş Şərq xalça sənəti üzrə 1-ci Beynəlxalq simpoziumdan görüntülər də yer alıb.

Milli Xalça Muzeyi tərəfindən hazırlanmış sənədli filmin ideya müəllifi Şirin Məlikova, rejissoru Mübariz Nağıyevdir.

Sonra qonaqlar sərgi ilə tanış olublar. Qeyd edək ki, Əməkdar rəssam Tariyel Başirovun eskizi əsasında muzeyin toxucuları tərəfindən ərsəyə gətirilən "Tarixin salnaməsi" xalçasının (ideya müəllifi Ş.Məlikova) toxunmasında 100 rəng çalarından da yun və ipək iplərdən istifadə olunub. Xalçanın zəngin kompozisiyasını təşkil edən təsvir və ornamentlər tarixi-mədəni zənginliklərimin əks olunduğu videoproyeksiya ilə nümayiş olunur.

**Lalə Azəri**

# "Heydər Əliyevin qarşısında çıxış etmək böyük xoşbəxtlik idi..."

### İlk Prezident təqaüdçüləri

Əksər sənət adamları kimi onun da ömrü acılı-şirinli xatirələr, unudulmaz anlarla zəngindir. Xasiyyəti etibarilə sadə və kövrək olduğundan az qala hər sözündə əhvalının necə dəyişdiyini, necə bir ovqata kökləndiyini duymaq olar.

Xalq artisti, bənzərsiz ifaların müəllifi və yaradıcılığının bütün mərhələlərində tamaşaçı auditoriyasının maraqla izlədiyi Niyaməddin Musayevlə bu dəfə onun sənət və həyat yolunda silinməz izlər qoyan Ulu öndər Heydər Əliyevi xatırladıq.

Söhbətin mövzusunu biləndə səsində bir titrəyiş, hüznlü bir heyhat hiss edilir: "O, əsl el atası, millət hamisi, xalq xilaskarı idi. Allah onu belə yaratmışdı: çox sevdiyi xalqına sonsuz məhəbbətlə bağlı olmaq...".

Sənətkar ötən əsrin 90-cı illərin ağır dönəminə nəzər salır: "Nə qədər çətinliklər vardı. Hər tərəfdən düşmənlər baş qaldırmışdı. Heydər Əliyev bunların hamısını görür, bilir və səbirlə, özü də əminliklə mübarizə aparırdı. Hər zaman da xalqına güvənirdi. Xalq da ona inanırdı. Şükür, o, xalqına arxalanaraq bütün çətinlikləri dəf elədi".

Onun həyatında Heydər Əliyevin ələhiddə yeri var. Deyir, Heydər Əliyev sayəsində bir sənət insanı olaraq öz dəyərimi aldım. Bu, onun böyük şəxsiyyət və sənətsevərliyinin bariz nümunəsi idi...

Sonra illər öncəyə qayıdır: "Sənət adamlarının təltif olunması ilə bağlı siyahılarda hər dəfə Niyaməddin unudulurdu. Özü də bu elə-belə unudulmaq deyildi. Ən sevilən, tez-tez anşlaqlarla konsertlər verən, mahnıları dillər əzbəri olan müğənni yada düşmədi. Buna zamanla alışdım. Sözsüz ki, məyus oldum, amma heç vaxt ruhdan düşmədim. Sənətimi, insanları, sənətə dəyər verən xalqımı çox sevirdim. Müğənnilər ildə 1-2 dəfə konsert verirdisə, mənim hər aya 2-3 konsertim olurdu. Zallar da dopdolu...

Beləcə, illər keçdi və böyük insan xalqının səsinə səs verərək hakimiyyətə gəldi, dövlətimizi və bütün çətinliklər içində həm də mədəniyyətimizi, mənəvi xəzinəmizi qorudu, diqqət-qayğısını əsirgəmədi. Beləcə, mən də Ümummilli lider Heydər Əliyevin sənətə, sənətkara diqqət və qayğısından pay aldım".



Söhbət geniş tamaşaçı auditoriyasına yaxşı tanış olan o kadrlara – Heydər Əliyevin müğənniyə şöhrət gətirən "Dünya sənin, dünya mənim" mahnısı haqqında dediklərinə gələndə müğənninin gözlərindəki işıq bir az da parıldadı: "Bu gün kimi yadımdadır o anlar. 1995-ci il – böyük Məmməd Arazın yaradıcılıq gecəsi idi. Əslində, ondan əvvəl də mənim Ulu öndərlə görüşüm olmuşdu. Hələ 1991-ci ildə Naxçıvanda. Böyük insanla iki saata yaxın söhbət eləmişdik. O, mənim bütün yaradıcılığıma yaxşı bələd idi. Səmimi və çox qürurlu xatirələrdir hamısı...



Bildiyiniz kimi, o, Moskvadan qayıdandan sonra Naxçıvana getmişdi. O vaxtlar ölkədə vəziyyət qarışıq idi. Elə bu məqamda illərdir çalışdığım "Azkonsert"dən Naxçıvana səfərlə bağlı xəbər gəldi. Bilirdim, naxçıvanlılar da məni çox sevir. Sevincək razılıq verdim. Getdik. Oraya gedən kimi Heydər Əliyevlə görüşmək istəyimi bildirdim və əlaqələndirəcək şəxsləri axtardım. "Konsertlərini ver, zaman tapan kimi səni dinləməyə gələcək", – dedilər. Naxçıvanda konsertlərimin ikinci günü idi ki, Heydər Əliyevin gəldiyini dedilər. Şux qaməti ilə dolu zala daxil oldu. Bütün zal onu ayaq üstə alqışladı. Sevincdən ürəyim köksümə sığmırdı. Həyəcanla konserti başladım.

Bir-iki mahnıdan sonra mənə bir gül çələngi gətirdilər. Fürsətdən istifadə edib çələngi də götürüb ayağım bir-birinə dolaşa-dolaşa səhnədən endim, ona yaxınlaşıb təqdim elədim. İlk dəfə idi onu belə yaxından görürdüm... O konsert həyatımda böyük dəyişiklik etdi. Mənə "Naxçıvan Muxtar Respublikasının "Əməkdar artisti" adını təqdim elədilər.

Konsert yüksək əhval ilə bitdi. Ansamblın üzvləri ilə yığışırdıq ki, "Heydər Əliyev yuxarıda sizi gözləyir, qalxın", – dedilər. Geyim-kecimimizi dəyişib qalxdıq. Bizi mehribanlıqla qarşıladı, xoş sözlər dedi. Uzun söhbətdə o, hər şeydən danışdı. "Hər buradan keçəndə sənin konsertlərinin afişasını görürdüm. Mənə çox xoş olurdu. Mahnılarına da qulaq asmışam. "Röya" ansamblını yaxşı formalaşdırmısan, repertuarın da təkmilləşib, rəngarəng olub, daha yaxşıdır", – dedi. Bu unudulmaz görüşün təəssüratında bir neçə gün də Naxçıvanda qaldım və ümumilikdə 15 konsert verdim.

Onunla növbəti görüşüm xalqın tələbi ilə hakimiyyətə gəlməyindən sonraya təsadüf etdi. Prezident seçkilərindən sonra tarixi gün yetişdi, andiçməsi oldu, ardınca da böyük konsert proqramı. Konsertdə mən də çıxış etdim, orada görüşdük. Sonra siz deyən o hadisə – Məmməd Arazın yaradıcılıq gecəsi oldu. Mən böyük şairin şeirinə yazdığım mahnımı oxudum. O, xeyli kövrəldi, elə zaldakılar da... Konsert bitdi, mən də uşaqlarla birgə aparaturanı yığışdırmağa başladım. Əlimdə də xeyli kabel, mikrofon.

Bu dəm oranın işçilərindən biri həyəcanla "Niyaməddin, qoy əlindəkiləri yerə, Heydər Əliyev səni çağırır", – dedi. Əksər ziyalılar, şairlər, yazıçılar, sənətkarlar o böyük insanın başına toplaşmışdılar. O, mənim haqqımda xeyli xoş sözlər dedi. Hamınız baxmısınız, təkrar etmək istəmirəm. Sonda fəxri adlar bərpa olunduqda ilk siyahıda mənim də olacağımı dedi və ruhu şad olsun, dediyini də elədi. Beləcə, mən birbaşa Azərbaycanın "Xalq artisti" fəxri adına layiq görüldüm. Xoşbəxtəm ki, 1998-ci ildə onun imzası ilə fəxri ad aldım, 2002-ci ildə isə Prezident təqaüdünə layiq görüldüm. O böyük insanın iştirak etdiyi bir çox dövlət tədbirlərində çıxış edirdim, görüşürdüm, xoş sözlərini eşidib xoşbəxt olurdum.

Bəzən başqalarının da onunla təmasda olmaq istəyini nəzərə alıb kənara çəkilərdim. O da hər məni görməyəndə xəbər alar və mütləq yanına çağırardı. İnanın, bundan böyük fərəh hissim olmayıb. Elə bir dahi şəxsiyyətin mənim ifalarımı dinləməsi, haqqımda xoş sözlər deməsi böyük qürurdur. O təkcə mənə yox, əksər sənət adamlarına, sənətə bağlı idi"...

Heydər Əliyevin mədəniyyətin bütün sahələrində dərin bilik və zövqə malik olduğunu, musiqiyə heyranlığını yada salan müğənni ona həsr etdiyi nəğmələrindən də danışdı: "Ona olan sonsuz sevgi və ehtiramımı 1995-ci ildə yazdığım "El atası" mahnısında ifadə etməyə çalışdım. Heydər Əliyevə həsr olunmuş ilk mahnının müəllifi olmaq məni çox qürurlandırır. Bu mahnı xeyli sevildi. Ardınca "Qurtuluş", "Ata" mahnılarını yazdım... Bütün bunlar ona olan sevgimin yalnız bir parçasıdır.

Heydər Əliyev Azərbaycan dövlətinin memarıdır. Onun haqqında nə qədər danışsan, yenə azdır. Biz qürur duymalıyıq ki, Azərbaycanın belə bir şəxsiyyəti olub".

**Həmidə**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (31)

### 1982-ci il 15 may

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev yaradıcı ziyalılara, təsərrüfat qabaqcıllarına yüksək mükafatların təqdimetmə mərasimində çıxış edib. SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanına əsasən Xalq yazıçısı Əli Vəliyev 80 illiyi ilə əlaqədar olaraq "Oktyabr İnqilabı" ordeni, SSRİ Xalq rəssamı Mikayıl Abdullayev isə 60 illiyi ilə əlaqədar "Xalqlar dostluğu" ordeni ilə təltif edilib.

*"...Əli Vəliyevin yaradıcılıq yolu Azərbaycanın tarixi ilə qırılmaz surətdə bağlıdır... Zəngin Azərbaycan folklorundan geniş və məharətlə istifadə etmək, ana dilinin incəliklərinə dərindən bələd olmaq onun yaradıcılıq üslubunun səciyyəvi xüsusiyyətidir.*

*Yazıçının sanballı əsərlərindən biri də müharibədən əvvəlki Azərbaycan kəndində baş vermiş əsaslı dəyişikliklərdən bəhs edən "Qəhrəman" romanıdır. Böyük Vətən müharibəsində vətəndaşlıq borcunu şərəflə yerinə yetirib cəbhədən qayıtmış yazıçı "Müharibə hekayələri"ni yazarkən keçirdiyi hisslərin dərin təsiri altında sülhün qorunması mövzusuna müraciət edir...*

*Əli Vəliyevin müharibədən sonrakı dövrdə yazdığı əsərlərin başlıca məzmununu Azərbaycan kəndinin növrağı, onun müvəffəqiyyətləri və problemləri təşkil edir. "Turaclıya gedən yol", "Budağın xatirələri" romanlarında, "Zəngəzur qartalları" oçerklər kitabında və başqa kitablarında müəllif eyni zamanda yeniliyin sonu çatmış köhnəliyə qarşı mübarizəsi gedişində meydana çıxan ziddiyyətləri təhlil edir. Bir sözlə, Əli Vəliyevin yaradıcılıq yolundan danışarkən biz bir daha qeyd edirik ki, o, böyük yazıçı və əsl vətənpərvərdir...*

*...Mikayıl Abdullayev öz yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin nailiyyətlərini artıran, bu mədəniyyətə şöhrət qazandıran görkəmli sənətkarlar dəstəsinə məxsusdur... Bəlkə də həyatın elə bir sahəsi yoxdur ki, rəssam öz əsərlərində onu əks etdirməsin. Çox böyük müvəffəqiyyət qazanan ilk əsəri "Mingəçevir işıqları" rəsmidir. Bu əsəri o hələ tələbəlik illərində yaratmışdır. M.Abdullayev seçdiyi mövzuya sonralar da sadiq qalmışdır. O, əmək qəhrəmanlarının portretlərinin böyük bir qalereyasının müəllifidir, onları sevdikləri işlə məşğul olduqları vəziyyətdə təsvir edir...*

*...Azərbaycan ədəbiyyatının klassikləri Nizaminin, Füzulinin və başqalarının, habelə sovet müəlliflərinin süjetlərinə onun çəkdiyi kompozisiyalar maraqlıdır. Nəsiminin M.Abdullayev tərəfindən yaradılmış portreti böyük şairimizin obrazını əks etdirən digər rəssamlarımızın əsərləri üçün əsas olmuşdur.*

*Xarici ölkələrə səfərlərin təsiri altında M.Abdullayev həmin ölkələrin təbiətindən, həyatından, adamlarından bəhs edən gözəl əsərlər yaratmışdır. Əlamətdar haldır ki, Hindistana həsr etdiyi əsərlər silsiləsinə görə o, Cəvahirləl Nehru mükafatına layiq görülmüşdür...*

*...Yüksək mükafatlar sevindirir və ruhlandırır. Lakin eyni zamanda bu mükafatlar daha yaxşı işləməyi, daha yüksək məqsədə nail olmağı tələb edir".*

### 1982-ci il 18 may

Heydər Əliyev bəstəkar Qara Qarayevin dəfn mərasimində nitq söyləyib. Qara Qarayev mayın 13-də Moskvada vəfat etdikdən sonra nəşi Bakıya gətirilərək Fəxri xiyabanda dəfn olundu.

*"...Biz zəmanəmizin böyük bəstəkarını, bütün həyatını xalqa xidmət işinə həsr etmiş bir sənətkarı son mənzilə yola salırıq... Qüdrətli istedad sahibi olan vətənpərvər sənətkar Qara Qarayev doğma Azərbaycan, bütün ölkə mədəniyyətinin inkişafına, dünya musiqi mədəniyyəti xəzinəsinə böyük töhfə vermişdir... Bu irs opera və baletdən tutmuş süitalar və mahnılaradək bütün bəstəkarlıq janrlarını əhatə edir. Qara Qarayev bu janrların hər birində Azərbaycanın musiqi sənətində yeni yollar açan, onun dünya şöhrətini ucaldan əsərlər yaratmışdır.*

*"Yeddi gözəl" baletinin romantik ruhlu musiqisində o, müqəddəratını həll edən xalq kütlələrinin nəhəng qüvvəsini açıb göstərmişdir. Lenin mükafatına layiq görülmüş "İldırımlı yollarla" baletində Afrika xalqlarının irqi ayrı-seçkiliyə və sosial zülmə qarşı mübarizə mövzusu musiqidə yenilməz emosional qüdrətlə təcəssüm olunmuşdur. SSRİ Dövlət mükafatlarına layiq görülmüş "Vətən" operası Böyük Vətən müharibəsi cəbhələrində rəşadətli vuruşmaların pafosu ilə, "Leyli və Məcnun" simfonik poeması ülvi məhəbbətin poeziyası ilə aşılanmışdır... "Çılğın qaskoniyalı" tamaşasına yazdığı musiqi bəstəkarın yaradıcılıq zirvələrindən biri olmuşdur.*

*...Qara Qarayevin öz təbiətinə görə milli olan əsərləri məzmunu, ruhu və mahiyyəti etibarı ilə beynəlmiləl əsərlərdir. Onlar Azərbaycan xalqının qədim musiqi mədəniyyətinin bütün zənginliyini, Qarayevin böyük müəllimləri Üzeyir Hacıbəyovun və Dmitri Şostakoviçin, rus, dünya klassik və müasir musiqisi korifeylərinin bütöv bir dəstəsinin yaradıcılığını özündə təcəssüm etdirir...*

*Görkəmli pedaqoq olan Qarayev yaradıcılığı respublikamızın və bütün ölkənin sərvətinə, iftixarına çevrilən parlaq, istedadlı musiqiçilərin neçə-neçə nəslini yetişdirmişdir...*

*Azərbaycan Dövlət Konservatoriyasının direktoru, bir çox on illər ərzində respublika Bəstəkarlar İttifaqının sədri, SSRİ Bəstəkarlar İttifaqının katibi vəzifələrində onun bir təşkilatçı və rəhbər kimi böyük istedadı özünü parlaq şəkildə təzahür etdirmişdir.*

*Bu gün bütün Azərbaycan xalqı, ölkəmizin bütün musiqisevərləri dərin kədər içindədir... Qara Qarayev həyatdan getmişdir. Lakin onun adı, onun musiqisi ölməzdir. İllər, on illər keçəcək, bizim kimi, yeni-yeni nəsillər də gözəlliyi Qara Qarayevin əsərləri vasitəsilə dərk edəcəklər...".*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Heydər Əliyev rəssamlara nələri tövsiyə etmişdi?

“İncəsənətdə realizmə sadiq qalın, əsl həyatı əks etdirin...”

Milli mədəniyyətimizin, incəsənətimizin bir çox sahələri Ulu öndər Heydər Əliyevin həm sovet Azərbaycanına, həm də müstəqil respublikamıza rəhbərliyi dövründə onun xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Bu, sadəcə, bir siyasi rəhbər, respublikanın başçısı tərəfindən deyil, eyni zamanda mədəni irsə, incəsənət tarixinə, nəzəriyyəsinə yaxından bələd olan, əsl sənətkarlığı dərindən duyan, dəyərləndirən, yüksək estetik zövqü, təhlil bacarığı və obyektiv mülahizələri ilə diqqət çəkən sənət bilicisi tərəfindən göstərilən diqqət və qayğı idi.
Məhz buna görə Heydər Əliyevin sənət adamları ilə görüşlərdə, incəsənətlə bağlı müxtəlif toplantılarda çıxışları hər zaman peşəkar səviyyədə olurdu. Həmin çıxışlarda sənətə və sənətkarlığa obyektiv qiymət də vardı, əsaslı tənqid və təhlil də vardı, dəyərli tövsiyələr də.
Bu baxımdan Heydər Əliyevin 1982-ci il oktyabrın 13-də, Azərbaycan rəssamlarının IX qurultayından sonra Rəssamlar İttifaqı İdarə heyətinin üzvləri, tanınmış təsviri sənət ustaları ilə görüşdə geniş nitq söyləməsi incəsənət tariximiz üçün tarixi hadisə idi. Onu da qeyd edək ki, bu, Heydər Əliyevin Moskvaya – SSRİ rəhbərliyində yüksək vəzifəyə getməzdən öncə respublikanın başçısı, Azərbaycan KP MK-nın Birinci katibi kimi Bakıda rəssamlarla sonuncu geniş görüşü idi. Onun respublikada rəssamlığın inkişafı, yaradıcılıq məsələləri ilə bağlı söylədiyi fikir və tövsiyələr sonradan yaradıcılıq təşkilatının, təsviri sənət ustalarının fəaliyyətində nə dərəcədə əksini tapdı – bu ayrı bir yazının mövzusudur. Amma birmənalı şəkildə deyə bilərik ki, 41 il əvvəl deyilənlərin əksəriyyəti bu gün aktualdır. Həmin nitqdən kiçik bir hissəni – o dövr üçün mütləq olan siyasi-ideoloji ritorikanı – çıxarsaq, o, əslində, indiyə, müasir Azərbaycan rəssamlığına da xitab edilən bir nitqdir...



Azərbaycan rəssamlarının IX qurultayı öz işini müvəffəqiyyətlə başa çatdırmışdır. Mən hər şeydən əvvəl bu hadisə münasibətilə sizi təbrik etmək, yeni yaradıcılıq müvəffəqiyyətləri arzulamaq istərdim. İttifaqınızın yaşı az deyildir, Azərbaycan rəssamlarının indiyədək doqquz qurultayı keçirilmişdir. İttifaq böyük və yekdil kollektivə çevrilmişdir...

...Belə bir cəhət razılıq hissi doğurur ki, Azərbaycan Rəssamlar İttifaqının qurultayda seçilmiş rəhbər orqanlarında respublika təsviri sənət ustalarının bütün nəsilləri təmsil edilmişdir. Burada nəsillərin tam varisliyi, yaşlı sənətkarların təcrübəsinin, orta nəslin yetkinliyinin gənclərin cəsarətli axtarışları ilə əlaqəsi göz qabağındadır...

Siz təkcə özünüz üçün deyil, həm də təsviri sənət sahəsində çalışan bütün ziyalılarımızın işi üçün, Azərbaycanda bədii yaradıcılığın gələcək inkişafı üçün cavabdehsiniz. Biz istərdik ki, siz öz vəzifələrinizin bu cəhətini tamamilə dərk edəsiniz və öz məsuliyyətinizi bütün dərinliyi ilə duyasınız. Bu, çox vacibdir...

Ötən illər ərzində rəssamlar kollektivi xeyli genişlənmiş, təsviri sənət sahəsində çalışan adamların sayı artmışdır. İndi sizin ittifaqınız böyükdür, təqribən 500 nəfəri birləşdirir...

Eyni zamanda sizin qarşınızda yeni, daha məsul vəzifələr durur. Onların haqqında danışarkən mən sizin diqqətinizi bəzi məsələlərə cəlb etmək istərdim. Azərbaycan təsviri sənətinin müvəffəqiyyətləri şəksizdir. Lakin biz bununla qətiyyən kifayətlənə bilmərik. Biz belə hesab edirik ki, respublikanın rəssamları daha böyük potensial imkanlara malikdirlər.

### Təsviri sənət xalqın tarixinin bədii salnaməsi olmalıdır

Sizdən daha çox şey gözləməyə haqqımız vardır. Axı, siz təsviri sənətin müxtəlif janrlarında işləyirsiniz və xalqın tarixinin əsl salnaməçilərisiniz. Bütün xalqların, o cümlədən Azərbaycan xalqının keçmişini öyrənərkən, bu gün məhz ata-babalarımızdan bizə yadigar qalmış təsviri sənət əsərləri vasitəsilə çox şey dərk edirik. Bəlkə də çoxəsrlik yolumuzda mənəvi həyatın bu sahəsində bizə ədəbiyyatda olduğundan az şey qalmışdır. Hər halda, bizə gəlib çatan sərvət zəngindir və məhz onun vasitəsilə, indiyədək mühafizə olunmuş təsviri sənət inciləri vasitəsilə bir çox hallarda xalqımızın tarixini, öz torpağımızın tarixini öyrənirik...

Sizi xalqın, onun tarixinin salnaməçiləri adlandırarkən, mən diqqətinizi xalqımızın indiki və gələcək nəsilləri qarşısında daşıdığınız çox böyük məsuliyyətə cəlb etmək istəyirəm. Əgər hər birinizdə yaratdığınız əsərlərin tarix üçün mühafizə olunmasından ötrü, onların, həqiqətən, respublikamızın inkişafında şahidi olduğunuz və təsvir etdiyiniz dövrü, həqiqətən, əks etdirməsindən ötrü öz yaradıcılıq və mənəvi potensialınızdan, öz imkanlarınızdan mümkün qədər daha dolğun istifadə etmək arzusu olsa, siz xalq qarşısında öz borcunuzu yerinə yetirərsiniz, öz yaradıcılığınıza, həqiqətən, dövlət mövqeyindən yanaşmış olarsınız.

...Bizdə çoxlu, müxtəlif təsviri sənət əsərləri yaradılmışdır. Lakin açığını demək lazımdır ki, görkəmli, həqiqətən, yaddaqalan tablolar hələlik azdır. Bəlkə də onların çox olmasına ümid bəsləmək çətindir, lakin bu barədə düşünməyə və bunu arzulamağa haqqımız vardır. Çünki belə əsərlər yaratmaq üçün bütün imkanlarınız vardır. Əgər belə əsərlər kifayət qədər deyildirsə, deməli, siz öz qüvvələrinizdən tam istifadə etmirsiniz, qabiliyyətinizi heç də bütünlüklə yaradıcılığa sərf etmirsiniz.

...Sizin ittifaqınız isə mövzuları, rəssamın yaradıcılığının inkişaf istiqamətini müəyyən dərəcədə təyin etməlidir. Əlbəttə, sənətkar fərdiyyətini inkar etmək olmaz, lakin bununla yanaşı incəsənətin əsas vəzifələrini müəyyən etmək və rəssamlarımızı bu vəzifələrin yerinə yetirilməsinə cəlb etmək olar və lazımdır. Əgər Rəssamlar İttifaqının fəaliyyətinə məhz bu mövqelərdən yanaşılsa məlum olar ki, o öz vəzifələrini hələ heç də tam şəkildə yerinə yetirmir. Bununla əlaqədar olaraq demək lazımdır ki, idarə heyətinin hesabat məruzəsində (ittifaqın sədri Xalq rəssamı Yusif Hüseynovun məruzəsi – red.) həqiqi dərinlik, bədii prosesin inkişafının və ittifaqın fəaliyyətinin hərtərəfli təhlili yox idi. Bəzən məruzəçi keçirilən sərgiləri sadalamaqla kifayətlənirdi. Bəs sərgi nədir? Bu, sizin işinizin yekun mərhələsidir, nəticəsidir. Əgər bu işin əvvəlcədən istiqaməti, yaradıcılıq mövzuları müəyyən edilsə, sərgilərin özünə də daha sanballı nəticələrlə gəlmək olar...

Biz tematik rəsm əsəri haqqında danışarkən – indi isə rəssamların yaradıcılığı üçün mövzular olduqca çoxdur – müəyyən etmək lazımdır ki, diqqət məhz hansı mövzular ətrafında cəmləşdirilməlidir. Çünki mövzu səpələndikdə, yayğınlaşdıqda onun dərindən açılmasına nail olmaq mümkün deyildir.

...Bizim çox zəngin tariximiz tələb edir ki, o dərindən, yaradıcılıqla dərk edilsin, təsviri sənətdə öz əksini tapsın. Əlbəttə, Rəssamlar İttifaqı burada bütün məsələləri ciddi şəkildə götür-qoy etməli, rəssamların yaradıcılıq axtarışlarının istiqamətini müəyyənləşdirməli, onların fərdi xüsusiyyətlərini, qabiliyyətini, istedadını nəzərə almalı, bu çox mühüm mövzunun işlənməsinə cəlb ediləcək müəllifləri təyin etməlidir. Əgər belə bir təşəbbüs göstərilsə, müəyyən mövzularda sifarişlər vermək olardı. Siz bunu nəzərə alaraq təşkilati tədbirlər işləyib hazırlamalısınız.

Müasirlik bizim zəmanəmizdir... Onu rəssamlıq əsərlərində bütün dolğunluğu və rəngarəngliyi ilə təcəssüm etdirmək sizin borcunuzdur. Mənə elə gəlir ki, ittifaq burada da özünün gələcək işi barəsində çox ciddi düşünməli, həmin istiqamətdə təşkilati tədbirlər nəzərdə tutmalıdır. Misal üçün bizim respublikamızı, bütün sahələrdə – iqtisadiyyatda, sosial, mənəvi, mədəni həyatda, elm və təhsildə qazanılmış çox böyük nailiyyətləri götürək...

Mən yenə də obrazlı, irimiqyaslı tematik əsərlər problemi üzərinə qayıdıram. Bəzən bizim rəssamlarımız qabaqcıl əməkçinin portretini çəkir və elə hesab edirlər ki, bununla da özlərinin dövrünü əks etdirirlər. Biz başa düşürük ki, adlı-sanlı əmək adamlarının portret qalereyalarını yaratmaq olduqca vacibdir. Lakin bununla yanaşı əmək həyatının bütün pafosunu vermək, respublikamızın inkişaf prosesini bədii cəhətdən əks etdirmək daha vacibdir. İncəsənətin müxtəlif janrlarında, müxtəlif vasitələri ilə bütün bunları etmək olar və lazımdır...



Təəssüf ki, bizdə zəngin təbiətimizi, onun təkrarsız, özünəməxsus gözəlliyini vəsf edən rəsm əsərləri olduqca azdır, mənzərə rəngkarlığı zəif inkişaf edir. Bu kasadlığı nə ilə izah etməli?!... Axı, Azərbaycanın təbiəti, bizim səmanın, dağların və düzənlərin, bizim dənizin əlvan boyaları təsviri sənət ustaları üçün tükənməz ilham mənbəyidir. Bütün bunlar tablolarda əks olunmalıdır. Bizə elə gəlir ki, təbiətin bəxş etdiyi bu rənglərin və boyaların zənginliyini, əzəmətini, bütün çalarlarını rəssamlarımız indiyədək hələ duyub mənalandırmamışlar. Elə buna görə də bir çox mənzərə əsərləri sönük və cansıxıcıdır. Hərçənd sizin bəzilərinizə elə gəlir ki, əksinə, bu əsərlər ifadəlidir. Nə üçün belə olur sualına bəzən cavab verib deyirlər ki, mən belə görürəm. Əgər belədirsə onda yəqin ki, rəssam gərək öz rəsm əsərlərinin yanında dayansın və bu əsərlərə baxan tamaşaçının əsərlərinizə sizin gözlərinizlə baxa bilməsi üçün, bizi əhatə edən aləmi sizin kimi hiss etməsi üçün təbiəti necə duyduğunu ona izah etsin. Zənnimcə, bu deyilənlər kifayətdir ki, siz yaradıcılıq fəaliyyətinizin başqa janrları və istiqamətləri barəsində çox ciddi düşünəsiniz.

Xalqımızın zəngin keçmişini, onun qəhrəmanlıq tarixini təsviri sənətdə əks etdirməkdən ötrü rəssamın qarşısında geniş fəaliyyət meydanı açılır. Bizim qədim mədəniyyətimiz vardır. Lakin təəssüf ki, bəzi başqa xalqlardan fərqli olaraq bizdə professional rəngkarlıq, əslində, ancaq sovet hakimiyyətinin qələbəsindən sonra yaranmışdır. Odur ki, Azərbaycan rəssamlarının bu sahədə yaradıcılıq fəaliyyəti üçün geniş meydan vardır, tarixi mövzular olduqca çoxdur. Bu mövzular hələ heç vaxt, heç kəs tərəfindən rəngkarlıqda öz əksini tapmamışdır. Buna görə də rəngkarlar xalqımızın milli istiqlaliyyət uğrunda, mürtəce qüvvələrə qarşı, yadelli qəsbkarlara qarşı, öz sosial qurtuluşu uğrunda apardığı mübarizəni və nəhayət, xalqımızın inqilabi fəaliyyət mərhələsini fundamental, parlaq əsərlərdə bütün dolğunluğu ilə əks etdirmək üçün son dərəcə çox iş görməlidirlər. Bunlar çox zəngin materialdır, çox zəngin bünövrədir.

Siz öz yaradıcılığınızda bunlardan mümkün qədər geniş miqyasda istifadə etməlisiniz. Deyilənlərdən heç də o nəticə çıxmır ki, bizdə xalqımızın həyatının həmin mərhələlərinə həsr olunmuş rəsm əsərləri yoxdur. Lakin bu əsərlərin sayı muzeylərimizdə, rəsm qalereyalarımızda, sərgilərimizdə görmək istədiyimizdən azdır. Xalqın tarixi və mənəvi həyatı, onun keçmişi həmişə müxtəlif maddi mədəniyyət nümunələrində, o cümlədən rəngkarlıqda əks olunur. Bu gün biz rəngkarlıq irsimizin çox da zəngin olduğunu söyləyə bilmərik. Lakin indiki və gələcək nəsillər üçün bu cür sərvət yaratmaq olar. Mən sizdən xahiş edərdim ki, bu barədə də fikirləşəsiniz və işinizin müvafiq istiqamətlərini müəyyənləşdirəsiniz, həm də bu zaman nəzərə almalısınız ki, tarixi mövzular bizim üçün getdikcə daha aktual əhəmiyyət kəsb edir.

Bu çox vacibdir ki, siz öz fəaliyyətinizdə Azərbaycan çərçivəsinə qapanıb qalmayasınız. Təbiidir ki, sizin yaradıcılığınız zəngin milli tarixi irsin, dünya klassik rəngkarlığının sintezi əsasında inkişaf edir və inkişaf edəcəkdir. Lakin bu zaman siz öz yaradıcılığınızın coğrafiyasını genişləndirməli, yalnız respublika ilə bağlı mövzularla kifayətlənməməlisiniz. Siz respublikamızla əlaqədar mövzulardan kənara nə qədər çox çıxsanız, bizim təsviri sənətimiz bir o qədər rəngarəng olar...

Təsviri sənətin bütün janrları bizim üçün əhəmiyyətlidir. Lakin ənənəyə görə təsviri sənətdə rəngkarlıq üstün mövqe tutur. Biz istərdik ki, özünəməxsus milli koloritə malik Azərbaycan rəngkarlıq məktəbi eyni zamanda dünya rəngkarlığının, bizim müasir sovet rəngkarlığının nailiyyətlərinə tam uyğun şəkildə inkişaf etsin. Əlbəttə, hər bir rəssamın yaradıcılığa öz münasibəti, öz fərdi xüsusiyyəti vardır, biz bunu başa düşür və qiymətləndiririk. Hər hansı yeniliyi özünüz üçün hərtərəfli aydınlaşdırmadan ayrı-ayrı modernist cərəyanların təsiri altına düşməyi və öz yaradıcılıq dəst-xəttinizi, öz fərdi xüsusiyyətinizi şikəst etməyi sizlərə məsləhət görmürəm...

...Bir daha xatırlatmaq istərdim ki, incəsənətdə realizmə sadiq qalın, əsl həyatı daha parlaq, daha düzgün əks etdirin, hər işdə həqiqət carçısı olun. Onda sizin yaradıcılığınızda əyintilər olmaz, gerçəklik təhrif edilməz.

Daha bir məsələ haqqında. Hər bir rəsm əsəri, mən bu barədə artıq danışmışam, tamaşaçılarda özünün təkcə daxili fəlsəfəsi, məzmunu, mövzunun, qayənin dərindən açılması ilə deyil, həm də, rəng çalarları ilə, boyaların zəngin palitrası ilə sevinc, fərəh hissi doğurmalıdır. Təəssüf ki, bəzi sənətkarlarımızın əsərləri öz koloriti etibarilə darıxdırıcı, yeknəsəq və sönükdür. Təbiidir ki, mən yalnız öz şəxsi təəssüratlarımı söyləyirəm, lakin bir çox adamlar, təsviri sənət pərəstişkarları bu təəssüratlara şərikdir.

### Miniatür rəssamlığını inkişaf etdirməklə dünyada daha çox tanına bilərik

Biz miniatür rəngkarlığın, çoxəsrlik zəngin ənənələri olan Azərbaycan miniatür sənətinin inkişafından dəfələrlə danışmışıq. Bir neçə il əvvəl mən bu barədə öz fikrimi söyləmiş, Tahir Salahova demişdim ki, biz bu məktəbi inkişaf etdirməliyik, həm də müasir zəmində inkişaf etdirməliyik. Bu yaxınlarda mən müasir miniatür rəngkarlığına aid bir neçə əsərə baxdım. Lakin bunlar, əslində, Orta əsr miniatürlərinin rəngkarlıq vasitələri ilə çıxarılan surəti idi. Madam ki, belədir, onda bu, miniatür sənətinin inkişafı deyildir, onun sadəcə surətidir. Məlumdur ki, Orta əsr Azərbaycan miniatür sənətinin məkan perspektivi yox idi, bu sənət ənginlik təsəvvürü deyil, müstəvi təsəvvürü yaradırdı. Əgər rəssamlar bu gün də hər işdə keçmiş sənətkarların texnikasına riayət etsələr bu, tamaşaçılar tərəfindən çətin ki, təqdir olunsun. Deməli, bu məktəbi əsas götürmək, onu yaradıcılıq mənasında inkişaf etdirmək, zənginləşdirmək, insanın bugünkü qavrayışını, rəngkarlığı necə duyduğunu, məkan perspektivini nəzərə almaqla keçmiş ilə bu günün üzvi sintezini yaratmaq lazımdır. Belə olarsa, bizdə əsl müasir miniatür məktəbi yaranar və siz bəlkə də öz yaradıcılığınızda hələ 500 il bundan əvvəl məşhur miniatür ustası Sultan Məhəmmədin çatdığı səviyyəni ötüb keçərsiniz. Hələlik isə bizdə miniatür sənətinin dirçəldilməsi ətrafında yalnız söhbət gedir və biz istənilən nəticəyə nail olmamışıq.

Zənnimizcə, rəssamlarımız, sizin yaradıcılıq ittifaqı, nəhayət, bizim rəngkarlıq sənətində belə xüsusi istiqamət yaratsaydılar, faydalı olardı. Bu, respublika üçün, Azərbaycan xalqının incəsənəti üçün fərqləndirici cəhət, milli xüsusiyyət olardı, həm ölkəmizdə, həm də xaricdə diqqəti özünə cəlb edərdi.

### Klassik ədəbiyyata illüstrasiyalar haqqında

İllüstrasiya sahəsində, Nizaminin, Xaqaninin, Füzulinin, Nəsiminin, Vaqifin və Azərbaycan poeziyasının başqa klassiklərinin yaradıcılığının motivləri əsasında rəsm əsərləri yaratmaq sahəsində iş rəssamlar üçün mühüm fəaliyyət meydanıdır. Bir dəfə mən Nizami muzeyində dünya ədəbiyyatı korifeyinin əsərləri mövzusunda illüstrasiyalar çəkilmiş bir neçə xalça gördüm. Hələ müharibədən əvvəl toxunmuş süjetli xalçalar güclü təsir bağışlayır. Halbuki, o vaxtdan qırx ildən çox bir müddət keçmişdir. Biz hazırda bu istiqamətdə təkcə xalçaçılıq vasitəsilə deyil, həm də rəngkarlıq, qrafika və s. vasitəsilə daha yaxşı və daha çox iş görə bilərik.

İllüstrasiya haqqında dediklərim geniş mənada başa düşülməlidir. Çox vaxt rəssamlar yalnız kitablara illüstrasiya çəkirlər, özü də bu illüstrasiyalar heç də həmişə yüksək keyfiyyətdə olmur. Lakin biz klassik poeziya əsərlərinə təkcə kitab qrafikası janrında deyil, təsviri sənətin başqa janrlarında da illüstrasiya çəkilməsini nəzərdə tuturuq. Bu iş geniş miqyasda, məhəbbətlə görülməlidir, poeziya incilərindəki fikirlərin və hisslərin bütün zənginliyini kətan üzərində, kitab səhifəsində, qrafika əsərində ifadə etməyə çalışmaq lazımdır. Təbiəti, məhəbbəti, dostluğu, gözəlliyi, xalqın ən yaxşı insani sifətlərini tərənnüm edən süjetlərə xüsusi diqqət yetirilməlidir. Bu, parlaq nümunələri insana tükənməz məhəbbət hissilə, həqiqətin, ədalətin təntənəsi, xeyirin şər üzərində qələbəsi ilə aşılanmış qədim ədəbiyyatımıza xas olan əsl nikbin sənətin yaranmasına kömək edər. Elə Nizaminin əsərlərini götürək. Axı, həmin əsərlər coşqun ehtirasların və hisslərin bütöv bir dünyasıdır, müdriklik xəzinəsidir. Onun ölməz poemalarının süjetləri əsasında neçə-neçə ən rəngarəng tablolar yaratmaq olar. Təəssüf ki, bizdə belə rəsm əsərləri hələ azdır. Bu səpkidə yaradılmış bəzi əsərlər isə böyük təsir bağışlamır.

Xalqımızın tarixini, onun keçmişinin səciyyəvi xüsusiyyətlərini nəzərə almaqla Azərbaycan təsviri sənət məktəbi özünü bu cəhətdən hələ göstərməlidir. Miniatür rəngkarlığı da bu sahədə çox iş görə bilərdi. Lakin bayaq qeyd etdiyimiz kimi, yalnız müasirlik zəminində. Bununla əlaqədar olaraq bizim tətbiqi sənətimiz, xüsusən xalçaçılıq sənəti daha da inkişaf etdirilməlidir. Xalqın dühası ilə yaranmış qədim əfsanələrin, həm də bizim böyük mütəfəkkirlərimizin, keçmiş şairlərin əsərlərinin motivləri və müasir həyat əsasında tematik xalçalar yaradılmasına xüsusi diqqət yetirilməlidir. Azərbaycan xalçaçılıq sənətinin yüksək bədii səviyyədə və sənətkarlıqla yaradılmış bu nümunələri əsl sənət əsərlərinə çevrilirlər.

### Muzey ekspozisiyalarını təsviri sənətlə zənginləşdirmək

Biz respublikanın bütün rayonlarında diyarşünaslıq muzeyləri yaratmağı qərara almışıq. Bu muzeylərin ekspozisiyaları sizin köməyinizlə zənginləşməlidir. Gələcəkdə hər bir rayonda rəsm qalereyası, sərgi salonu açmaq planlaşdırılır. Rəssamlarımız, sizin yaradıcılıq ittifaqı bu işi indidən həyata keçirməlidirlər. Biz haqlı olaraq belə hesab edirik ki, təsviri sənət insanın estetik, mənəvi tərbiyəsi üçün ən mühüm vasitədir. Deməli, belə mühüm işdə Bakıda yeganə təsviri sənət muzeyinə, yeri gəlmişkən deyim ki, çox vaxt qapıları bağlı olan yeganə böyük rəsm qalereyasına malik olmaq kifayət deyildir. Bu sahədə imkanlarımızın coğrafiyasını genişləndirməliyik, biz bu istiqamətdə böyük iş görməliyik.

Bir neçə kəlmə də heykəltəraşlıq haqqında. Bizim həyatımız heykəltəraşlar qarşısında çox böyük fəaliyyət meydanı açır. Paytaxtımız Bakı üçün onların yaratdıqlarını biz çox yüksək qiymətləndiririk. Lakin hələ çox iş görülməlidir. Biz hər bir şəhərdə, hər bir kənddə, hər bir yaşayış məntəqəsində Azərbaycan xalqının Böyük Vətən müharibəsindəki rəşadətli hünərini əbədiləşdirən abidə ucaltmaq vəzifəsini qarşıya qoymuşuq. Bu cəhətdən hələlik geri qalırıq. Doğrudur, 70-ci illərdə az iş görülməmişdir. Lakin şəhərlərin, kəndlərin, qəsəbələrin heç də hamısında belə abidələr yoxdur. Belə abidələrin yaradılmasına yüksək məsuliyyət hissilə yanaşmaq, yadda saxlamaq lazımdır ki, bu yolla biz xalqın öz qəhrəmanlarına əbədi ehtiramını ifadə edir və eyni zamanda həmin abidələr vasitəsilə bizim Azərbaycan heykəltəraşlığının malik olduğu imkanların geniş diapazonunu nümayiş etdiririk.

Biz bu qənaətə gəlmişik ki, hər bir rayonda və şəhərdə rayon, şəhər rəssamı vəzifəsi təsis edək, iri müəssisələrdə belə mütəxəssislərimiz olsun, yəni biz professional, yüksək səviyyədə bədii təsviri sənətin imkanlarından istifadə etməli və bu imkanları həyatımızın bütün sahələrinə tətbiq etməliyik...

### Rəssamlıq sahəsində peşə hazırlığı barədə

Biz rəssamlıq istedadı olan adamların peşə hazırlığını genişləndirməliyik. İncəsənət İnstitutunda xüsusi fakültə açmışıq. Bu fakültəyə hər il 75 adam qəbul edilir. Bir müddətdən sonra bünövrə möhkəmləndikdə biz onların sayını artıra bilərik və gələcəkdə xüsusi təsviri sənət akademiyası və ya institutu yaradarıq. Bizdə təsviri sənət xadimlərinin öz qüvvələrini, istedadını, yaradıcılıq imkanlarını tətbiq etmələri üçün fəaliyyət meydanı genişdir. Təkcə o lazımdır ki, Rəssamlar İttifaqı bütün imkanlardan daha dolğun istifadə etsin və güzəşt bilməyən yaradıcılığınız, onun yüksək keyfiyyəti sizin üçün başlıca cəhət olsun və siz çox vaxt sənətdən uzaq olan hər hansı başqa mülahizələri deyil, gərək məhz bunları rəhbər tutasınız.

Təsviri sənət əsərlərinin keyfiyyəti haqqında bir neçə kəlmə danışmaq istərdim. Biz Bakıda, respublikanın başqa şəhərlərində və rayonlarında bədii səviyyəsi çox-çox aşağı olan rəsm əsərlərinə tez-tez təsadüf edirik. Bu barədə mülahizələrimizi dəfələrlə Rəssamlar İttifaqına bildirmişik, lakin nə ittifaq, nə də onun katibliyi həmin istiqamətdə lazımi iş aparmırlar və hələlik bir çox rəsm əsərlərimiz yenə də aşağı keyfiyyətdədir. Buna görə də biz kəmiyyətdən danışarkən hökmən keyfiyyət də tələb edirik...

Sənətkarın bir çox ünsürlərdən ibarət olan mənəvi potensialı mühüm məsələdir. Əlbəttə, onun yaradıcılıq qabiliyyəti, sənətkarlığı başlıca cəhətdir. Lakin bununla yanaşı, mənəvi potensialı insanın dünyagörüşü, ümumi erudisiyası, mədəniyyəti, əxlaqi keyfiyyətləri müəyyən edir. Belə bir sənətkar tarixdə qala biləcək əsərlər yaratmağa qadirdir.

Sizin vəzifəniz bu keyfiyyətləri özünüzdə tərbiyə etməkdən, öz qarşınızda bu tələbləri qoymaqdan və Rəssamlar İttifaqının rəhbər özəyini təşkil etdiyinizə görə bu keyfiyyətləri hər bir rəssamda tərbiyə etməkdən ibarətdir.

Sizin səmərəli işləyə bilməyiniz, bu gün haqqında danışdığımız, arzuladığımız vəzifələri yerinə yetirə bilməyiniz üçün sizə müvafiq şərait yaradılır və yaradılacaqdır. Sizdən isə biz daha yaxşı, daha keyfiyyətli fəaliyyət göstərməyi gözləyirik...

# "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı"

## Yazıçılar Birliyi Qubada konfrans keçirib

5-6 may tarixlərində Qubada Azərbaycan Yazıçılar Birliyi (AYB) Ədəbiyyat Fondunun təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" konfransı keçirilib. Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş konfransda tanınmış ədəbiyyat xadimləri, gənc yazarlar, bölgə ədibləri bir araya gəliblər.



Konfrans iştirakçıları Ulu öndərin abidəsi önünə gül dəstələri qoyublar.

Əvvəlcə xüsusi olaraq konfrans üçün hazırlanmış "Heydər Əliyev və Azərbaycan" adlı sənədli film nümayiş olunub.

AYB Ədəbiyyat Fondunun baş direktoru Varis Yolçuyev giriş sözü söyləyib.

Xalq yazıçısı, AYB-nin sədri Anar çıxış edərək Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb, onun respublikaya rəhbərliyinin hər iki dövründə ədəbiyyata diqqət və qayğısından söz açıb.

Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev qonaqları salamlayaraq belə bir tədbirin Qubada keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Xalq şairi Sabir Rüstəmxanlı Ulu öndərin Azərbaycanın azadlıq və müstəqillik hərəkatına münasibətindən danışıb, xatirələrini söyləyib.

Heydər Əliyev barədə bədii və sənədli əsərlərin müəllifi, Xalq yazıçısı Elmira Axundova "Əbədiyaşar məhəbbət: Zərifə və Heydər Əliyevlər barədə" kitabının necə yaranmasından, Ulu öndərlə ünsiyyətindən bəhs edib.

Milli Məclisin deputatı Jalə Əliyeva "Heydər Əliyev və ana dilimiz", kulturoloq, professor Fuad Məmmədov "Heydər Əliyev və yeni mədəniyyət konsepsiyası", millət vəkili, yazıçı Aqil Abbas "Ulu öndərin sənət adamlarına diqqət və qayğısı", Mətbuat Şurasının sədri, AYB-nin sədr müavini Rəşad Məcid "Sözün qədirbiləni", təhlükəsizlik məsələləri üzrə ekspert, ehtiyatda olan polkovnik Seymur Şeydayev "Heydər Əliyev yazıçılarımızı KQB-nin qanlı caynağından necə xilas etdi", yazıçı-publisist, Əməkdar jurnalist Səyyad Aran "Heydər Əliyevlə Yaponiyaya səfərimizin təəssüratları" mövzularında çıxışlar ediblər.

Konfransda AYB-nin Dramaturgiya bölməsinin müdiri Əməkdar incəsənət xadimi Firuz Mustafa, Rəsul Rza mükafatı laureatı, professor Əlibala Məhərrəmzadə, Beynəlxalq "Alaş" ədəbiyyat mükafatı laureatı, şair Əkbər Qoşalı, yazıçı, kinodramaturq, Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu, AYB-nin Uşaq ədəbiyyatı bölməsinin müdiri Qəşəm Nəcəfzadə, AYB-nin Poeziya bölməsinin müdiri İbrahim İlyaslı, AYB-nin Quba təşkilatının rəhbəri Ramiz Qusarçaylının mövzu ilə bağlı məruzələri dinlənilib.

Konfrans zamanı AYB-nin Heydər Əliyevin 100 illiyinə töhfəsi olan "Əbədi ömrün yüz ili" kitabının təqdimatı da keçirilib. Nəşrin tərtibçisi və ön söz müəllifi, AYB-nin katibi Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli onun ərsəyə gəlməsi barədə danışıb.

Konfrans çərçivəsində tədbir işçiləri Quba Soyqırımı Memorial Kompleksini də ziyarət ediblər.

# Əməkdar mədəniyyət işçisi Yavər Cəbrayılov vəfat edib



Əməkdar mədəniyyət işçisi, "Tərəqqi" medallı Yavər Cəbrayılov 6 may 2023-cü il tarixində, ömrünün 74-cü ilində vəfat edib.

Yavər Qəhrəman oğlu Cəbrayılov 14 avqust 1948-ci ildə Neftçala rayonunun Xolqarabucaq kəndində doğulub. 1971-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu ixtisasını bitirib. 1971-1972-ci illərdə Mingəçevir Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərib.

Uzun müddət mədəniyyət sahəsində müxtəlif vəzifələrdə çalışıb, 1993-2006-cı illərdə Salyan Rayon Mədəniyyət Şöbəsinin müdiri olub. 2006-2020-ci illərdə Salyan Dövlət Kukla Teatrının direktoru işləyib.

Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü olan Y.Cəbrayılov Salyan rayon Mədəniyyət Mərkəzinin nəzdində "Cəngi" milli nəfəsli xalq kollektivinin yaradılmasında da yaxından iştirak edib. O, eyni zamanda bölgənin musiqi və folklor mühitinin təbliğinə töhfələr verib.

Allah rəhmət eləsin.

# "Üzeyir Hacıbəyli və Heydər Əliyev"

Mayın 8-də Üzeyir Hacıbəylinin Ev-Muzeyində Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə konfrans keçirildi.

"Üzeyir Hacıbəyli və Heydər Əliyev" mövzusunda tədbiri muzeyin direktoru Xalq artisti, bəstəkar Sərdar Fərəcov açaraq Ümummilli liderin böyük bəstəkarın irsinə münasibətindən, onun yaradıcılığına olan vurğunluğundan bəhs etdi. Bəstəkarın ev-muzeyinin 1975-ci ildə məhz Heydər Əliyevin təşəbbüsü və dəstəyi nəticəsində yaradılmasını diqqətə çatdırdı.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru İmruz Əfəndiyeva Ulu öndərin onların ailəsinə, dövlət xadimi, teatrşünas, yazıçı olmuş atası Məmməd Sadıq Əfəndiyevə göstərdiyi diqqət və qayğıdan söhbət açdı.

Konfransda həmçinin musiqişünas, Əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasının elmi-metodiki işlər üzrə direktor müavini Aytən İbrahimova, məktəb-studiyanın müəllimi Nuranə Zeynalova, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ülkər Talıbzadə, Ü.Hacıbəylinin Ev-Muzeyinin əməkdaşı Nurtəkin Səfərova və başqalarının çıxışları dinlənildi.

Bəstəkar Sərdar Fərəcovun "Böyük vətəndaş haqqında oda" əsəri əsasında



hazırlanmış videoçarx nümayiş olundu. BMA-nın II kurs tələbəsi Hidayət Sadıqbəyli royalda Emil Əfrasiyabın "Üzeyir Hacıbəyli mövzusuna parafraz" kompozisiyasını səsləndirdi.

Sonda iştirakçılar "Heydər Əliyev Üzeyir Hacıbəylinin Ev-Muzeyinin açılışında" mövzusunda fotofraqmentlərə tamaşa etdilər.

Tədbirdə Bakıdakı ev-muzeylərinin direktorları və əməkdaşları da iştirak edirdilər.

**Gülnarə Ələsgərova**
**Üzeyir Hacıbəylinin Ev-Muzeyi Ekspozisiya şöbəsinin müdiri**

# "Heydər Əliyev ideyalarının zəfər yürüşü"

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xətai rayon MKS-nin Mərkəzi Kitabxanasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Heydər Əliyev ideyalarının zəfər yürüşü" adlı tədbir keçirilib.

Tədbirdə mədəniyyət, elm, təhsil işçiləri, ictimai təşkilatların nümayəndələri, Bakı şəhər MKS-lərinin əməkdaşları, oxucular iştirak ediblər.

Xətai Rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov, Şəhid ailələri və Vətən müharibəsi iştirakçıları ilə işin təşkili şöbəsinin müdiri, Vətən müharibəsi iştirakçısı Anar Məmmədov, Xətai rayon MKS-nin əməkdaşı Ağgül Mərdanova, Əməkdar müəllim Rüfət Hüseynzadə çıxış edərək Heydər Əliyevin müasir Azərbaycan tarixində müstəsna xidmətlərindən söz açıblar.

Həmçinin "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "Heydər Əliyev irsinin təbliğində muzeylərin rolu" və s. mövzularda çıxışlar dinlənilib.

Xalq artisti Şükufə Musayeva Xalq şairi Zəlimxan Yaqubun



"Ömrün Heydər zirvəsi" şeirini səsləndirib.

Cəbrayıl rayonu Böyük Mərcanlı tam orta məktəbin şagirdləri Ulu öndərə həsr olunmuş şeirlərdən ibarət kompozisiya nümayiş etdiriblər.

Sonda MKS-nin direktoru Həmidə Məmmədova qonaqlara minnətdarlığını bildirib.

# Rejissorların fəaliyyətini təşviq etmək, kinoya yeni adlar qazandırmaq

## "START – 2023" müsabiqəsinin qalibləri mükafatlandırıldı

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının təşkilatçılığı ilə mayın 5-də Nizami Kino Mərkəzində "START-2023" film layihəsi üzrə qaliblərin mükafatlandırılması mərasimi və mətbuat konfransı keçirildi.



Qeyd edək ki, "Azərbaycanfilm" kinostudiyasının keçirdiyi müsabiqəyə ümumilikdə 45 ssenari təqdim olunub. "Tammetrajlı bədii film layihəsi" kateqoriyasında "Özgə ağrı" (Rövşən İsgəndərov), "Qısametrajlı bədii film layihəsi" kateqoriyasında "Erkən hisslər" (Nurlan Həsənli) və "Neytral zonanın sonuncu sakini" (Tahir Tahiroviç), "Qısametrajlı animasiya filmi layihəsi" kateqoriyasında isə "Balıq" (Fuad Quliyev) və "Sonuncu lələk" (Firəngiz Bağırova) ssenariləri qalib olub. Qaliblər kinostudiyanın nəzdində yaradılmış Ekspert şurası tərəfindən müəyyənləşdirilib.

"Azərbaycanfilm"in mətbuat xidmətinin rəhbəri Ramil Ələkbərov bildirdi ki, kinostudiyanın keçirdiyi əvvəlki müsabiqədən fərqli olaraq, bu il ilk dəfə ssenarilər Ekspert şurasının üzvlərinə anonim formada təqdim edilib.

"Azərbaycanfilm"in direktor müavini Emil Nəcəfov müsabiqələrin əhəmiyyətindən danışdı. Dedi ki, məqsəd milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək olmaq və bu istiqamətdə çalışan gənc rejissorların fəaliyyətini stimullaşdırmaq, eləcə də kino mühitinə yeni adlar qazandırmaqdır. Müsabiqəyə tammetrajlı bədii, qısametrajlı bədii və qısametrajlı animasiya film layihələri qəbul olunub. Müsabiqədə janr və mövzu məhdudiyyəti qoyulmayıb. Qalib layihələrin növbəti illər ərzində kinostudiyada istehsala buraxılması nəzərdə tutulur.

Ekspert şurasının sədri Əməkdar incəsənət xadimi Elxan Cəfərov: "Oxuduğumuz 45 ssenari o deməkdir ki, 45 şəxs bu barədə düşünür, kino arzusu ilə yaşayır. Qaliblər ən dəyərli ssenarilərdir".

Ekspert şurasının üzvlərindən Əli İsa Cabbarov dedi ki, ssenari müsabiqələri nə qədər çox olsa, bu, bir o qədər keyfiyyətli işlərin ortaya çıxmasına şərait yaradacaq: "Ümid edirəm ki, qalib ssenarilər Kino Agentliyinin və "Azərbaycanfilm" kinostudiyasının ən birinci istehsalata buraxılmış layihələri olacaq". Vidadi Həsənov isə bildirdi ki, ssenarilər müxtəlif mövzularda idi və bu da sevindirici haldır: "İnsanlar yeni düşüncəni, yeni baxışı ssenariyə, kinoya gətirirlər".

Sonda müsabiqə qaliblərinə diplomlar təqdim olundu.

**Lalə Azəri**

# Xatirə təqvimi

**10–12 may**

## Azərbaycan

**10 may 1910** – Əməkdar incəsənət xadimi, rejissor Həsən Səfər oğlu Ağayev (1910-1986) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrında çalışıb.

**10 may 1922** – Əməkdar rəssam Cabbar Əli oğlu Quliyev (1922 – 27.8.2004) Qərbi Azərbaycanın Zəngibasar mahalında (Ermənistanın Masis rayonu) anadan olub. Aşıq Ələsgər, Xəstə Qasım və başqa el sənətkarlarının portret-obrazlarını yaradıb.

**10 may 1926** – Yazıçı-ssenarist Əhmədağa Muğanlı (Əhmədağa Əkbər oğlu Qurbanov; 1926 – 4.8.2001) Biləsuvar rayonunun Əliabad kəndində doğulub. "Dağlarda döyüş", "Qocalar, qocalar...", "Doğma sahillər" və s. bədii filmlərin ssenari müəllifidir.

**10 may 1932** – Əməkdar incəsənət xadimi, rejissor, ssenarist Musa Ağabəy oğlu Bağırov (1932 – 11.5.2022) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında, "Azərbaycantelefilm"də sənədli filmlər çəkib.

**10 may 1934** – Ədəbiyyatşünas, professor Şamil Dünyamalı oğlu Qurbanov (1934-2004) Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində doğulub.

**10 may 1937** – Xalq şairi Musa Yaqub (Musa Səfiməmməd oğlu Yaqubov; 1937 – 7.5.2021) İsmayıllı rayonunun Buynuz kəndində doğulub. "Ürəyimdə yerin qaldı", "Ruhumla söhbət", "Dövrün dəyirmanı" və s. kitabların müəllifidir. Milli Məclisin deputatı (1995-2000) olub.

**10 may 1938** – Əməkdar mədəniyyət işçisi, miniatürçü rəssam Fəxrəddin Vəli oğlu Əliyev (1938 – 8.2.2022) Ermənistan SSR Meğri rayonunun Nüvədi kəndində anadan olub. AMEA Əlyazmalar İnstitutunda baş rəssam işləyib.

**10 may 1946** – Ədəbiyyatşünas, mətnşünas Maarif Abı oğlu Teymur (1946 – 9.10.2016) Masallı rayonunun Ərkivan kəndində doğulub. Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru olub.

**11 may 1915** – Xalq rəssamı, görkəmli heykəltəraş Fuad Həsən oğlu Əbdürrəhmanov (1915 – 15.6.1971) Şəkidə anadan olub. Nizami Gəncəvinin (Bakıda və Gəncədə), Səməd Vurğunun abidələrinin, "Azad qadın" heykəlinin müəllifidir.

**11 may 1928** – Əməkdar mədəniyyət işçisi, aktyor, kino təşkilatçısı Nəriman Qulam oğlu Axundov (1928-2009) anadan olub. 1958-ci ildən "Azərbaycanfilm" kinostudiyasında müxtəlif vəzifələrdə çalışıb.

**11 may 1935** – Xalq yazıçısı Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov (1935 – 22.3.2016) anadan olub. Bir sıra əsərləri ("Mezozoy əhvalatı", "Bayquş gələndə") ekranlaşdırılıb. "Bizim Cəbiş müəllim", "Uşaqlığın son gecəsi" və s. filmlərin ssenari müəllifidir. Milli Məclisin deputatı (1995-2010) olub.

**11 may 1946** – Əməkdar rəssam Nazim Şamil oğlu Rəhmanov (1946-2003) anadan olub. Əsərləri Moskva Şərq Xalqları İncəsənəti Muzeyində, şəxsi kolleksiyalarda saxlanılır.

**11 may 2012** – Prezident İlham Əliyev SSRİ Xalq artisti, görkəmli bəstəkar Rauf Hacıyevin 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**11 may 2017** – Prezident İlham Əliyev Azərbaycan professional vokal məktəbinin banisi, SSRİ xalq artisti Bülbülün 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**12 may 1907** – Xalq artisti, bəstəkar və pedaqoq Səid Rüstəmov (1907 – 10.6.1983) İrəvanda anadan olub. "Beşmanatlıq gəlin", "Durna" və s. musiqili komediyalarının, populyar mahnıların ("Qurban adına", "Oxu, gözəl" və s.) müəllifidir. Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və dirijoru olub, teatr tamaşalarına musiqi yazıb.

**12 may 1915** – Xalq rəssamı, heykəltəraş İbrahim Əli oğlu Quliyev (1915 – 16.6.1971) Şəkidə doğulub. Azərbaycanın ilk peşəkar heykəltəraşlarından biridir, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü olub.

**12 may 1925** – Yazıçı Bayram Həsən oğlu Həsənov (1925-1979) Ermənistanın Allahverdi (Alaverdi) rayonunun Böyük Ayrım kəndində anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir.

**12 may 1935** – Tanınmış diktor, Əməkdar jurnalist Valid Möhsün oğlu Sənani (1935-2011) Bakıda doğulub. Azərbaycan Televiziyasının ilk futbol şərhçisi olub.

**12 may 1940** – Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi, ədəbiyyatşünas Abbas Abdulla (Hacaloğlu; 1940 – 4.9.2019) Gürcüstanın Bolnisi rayonunun Bolus Kəpənəkçi kəndində doğulub. Ukrayna ədəbiyyatından tərcümələr edib.

**12 may 1940** – Əməkdar incəsənət xadimi, heykəltəraş Vaqif Osman oğlu Nəzirov (1940-2020) anadan olub. Sumqayıt şəhərinin baş rəssamı işləyib, şəhərdəki "Sülh göyərçini" abidəsinin həmmüəllifidir.

**12 may 1944** – Tanınmış rəssam Ənvər Əmirhüseyn oğlu Əliyev (1944-2003) Bakıda anadan olub. Üzeyir Hacıbəyli obrazına ən çox müraciət edən rəssamdır, başqa görkəmli şəxsiyyətlərin portretlərini çəkib.

**12 may 1952** – Əməkdar artist Azər Əlbaba oğlu Mirzəyev (1952 – 19.7.2014) Zərdab rayonunun Əlvənd kəndində doğulub. Gənc Tamaşaçılar Teatrında aktyor kimi çalışıb, Milli Dram Teatrının direktor müavini olub.

**12 may 2005** – Xalq artisti, məşhur xanəndə Sara Bəbiş qızı Qədimova (31.5.1922 – 2005) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının, Opera və Balet Teatrının solisti olub.

**12 may 2011** – Görkəmli rejissor, aktyor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu (Həsənov; 18.10.1949 – 2011) vəfat edib. Yuğ Dövlət Teatrının yaradıcısıdır. Filmlərdə çəkilib.

## Dünya

**10 may 1903** – Özbək şairi Qafur Qulam (1903-1966) anadan olub. Nizami Gəncəvinin əsərlərini özbək dilinə tərcümə edib.

**10 may 1888** – Amerika kino bəstəkarı Maks Stayner (Maximilian Raoul Steiner; 1888-1971) anadan olub. Ən yaxşı kino musiqisinə görə üç dəfə "Oskar" alıb.

**11 may 1904** – İspan rəssamı, heykəltəraş, yazıçı, rejissor Salvador Dali (Salvador Felipe Jacinto Dali; 1904 – 23.1.1989) anadan olub. Sürrealizimin banilərindən biridir.

**11 may 1916** – İspan yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1989) laureatı Kamilo Xose Sela (Camilo Jose Cela; 1916-2002) anadan olub. "Paskual Duartenin ailəsi", "Arı şanı", "Apelsinlər qış meyvələridir" və s. romanların müəllifidir.

**12 may 1842** – Fransız bəstəkarı, lirik operaların müəllifi Jül Massne (Jules Massenet; 1842-1912) anadan olub. Əsərləri: "Verter", "Tais" və s.

**12 may 1907** – Amerika aktrisası Ketrin Hepbern (Katharine Hepburn; 1907-2003) anadan olub. Dörd dəfə "Oskar" mükafatına layiq görülüb.

**Hazırladı: V.Orxan**

# ADMİU-da rusiyalı aktyor və rejissorla görüş

Xəbər verdiyimiz kimi, 3-5 may tarixlərində Bakıda "Moskva Günləri" adlı silsilə mədəniyyət tədbirləri keçirilib.

"Moskva Günləri" çərçivəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Rusiyanın Əməkdar artisti, "Müasir pyes məktəbi" teatrının rəhbəri, teatr və kino rejissoru, aktyor Dmitri Astraxanla yaradıcılıq görüşü keçirilib.

Görüşdə universitetin professor-müəllim heyəti, Teatr sənəti və audiovizual sənətlər fakültəsinin tələbələri iştirak ediblər.

Görüşə görə minnətdarlığını bildirən qonaq aktyorluq sənəti, teatr və kino yaradıcılığı, pyes yazmaq və onu səhnələşdirmək haqqında danışıb, öz təcrübələrini bölüşüb. Dmitri Astraxan həmçinin gələcəkdə bu sənəti peşəkar səviyyədə davam etdirəcək tələbələrə öz tövsiyələrini verib, onların suallarını cavablandırıb.

№35 (2004)
10 may 2023
www.medeniyyet.az

# "Dayanıqlı inkişaf naminə mədəniyyət"

## Ölkəmiz Kubada beynəlxalq konqresdə təmsil olunub

Kuba Respublikasının paytaxtı Havana şəhərində Mədəni İrs və Dayanıqlı İnkişaf üzrə Beynəlxalq Konqres keçirilib. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva tədbirdə iştirak edib.




Tədbirin ilk günü qonaqları qəbul edən Kuba prezidenti Migel Dias-Kanel Bermudes bu ölkənin mədəni irsə verdiyi dəyərdən və irəli sürdüyü təşəbbüslərdən söhbət açıb, 2023-cü ildə "G77+Çin" Qrupuna üzv ölkələrin Kubanın sədrliyi dövründə həyata keçirilən ilk konqresə uğurlar arzulayıb.

Konqres çərçivəsində BMT-nin "G77+Çin" Qrupuna üzv ölkələrin mədəniyyət nazirlərinin görüşü olub.

"Dayanıqlı inkişaf naminə mədəniyyət" mövzusunda keçirilən görüşdə Şərqlə Qərb arasında yerləşən Azərbaycanın zəngin tarixi-mədəni irsə sahib olduğu və bütün dünyada mədəniyyətlərarası dialoqu fəal təbliğ etdiyi diqqətə çatdırılıb. Dövlət Xidməti rəisinin çıxışında ölkəmizin təşəbbüsü olan "Bakı Prosesi" və bu çərçivədə 2009-cu ildən etibarən 6 dəfə keçirilmiş Dünya Mədəniyyətlərarası Dialoq Forumun qlobal platforma kimi əhəmiyyəti vurğulanıb.

# Vyanada Azərbaycan milli geyimləri nümayiş olunub

Mayın 6-da Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) "Salam. Orient" festivalı çərçivəsində "İpək Yolu boyunca milli geyimlər" adlı tədbir keçirilib.

AMM-in "Salam. Orient" və "Kulteurasia" ilə birgə təşkil etdiyi tədbirdə qədim İpək Yolu üzərində yerləşən ölkələrin (Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistandan) milli geyim nümunələri nümayiş etdirilib.

Mərkəzin rəhbəri Leyla Qasımova "Salam. Orient" festivalı və "Kulteurasia" təşkilatı ilə davam edən əməkdaşlıqdan məmnunluğunu bildirib. Qeyd edib ki, İpək Yolu ölkələrinin milli geyimlərinin AMM-də təqdim olunması Azərbaycanın bu ölkələrlə dostluğunun daha bir nümunəsidir. Leyla Qasımova sərgiyə Azərbaycan milli geyimlərini təqdim edən Bakı Milli Geyim Evinə xüsusi təşəkkürünü bildirib.

"Kulteurasia" təşkilatının rəhbəri Daniela Libervirt təqdimatla çıxış edib və qədim İpək Yolu üzərində yerləşən ölkələrin milli geyimlərinin xüsusiyyətlərindən danışıb. Məruzədə Azərbaycan kəlağayısı, Mərkəzi Asiya ölkələrində geniş yayılmış ikat, çakan və digər geyimlər barədə ətraflı məlumat verilib, Cənubi Qafqazda yeganə ipək istehsalı mərkəzi Şəki şəhərindən və Azərbaycan ipəyindən bəhs olunub.



Sonra sözügedən ölkələrin nümayəndələri öz milli geyimlərini nümayiş etdiriblər.

Tədbirdə Avstriyada yaşayan kamança ifaçısı Ruhulla Əziz musiqili proqramla çıxış edib.

# Bakıda ICOMOS tərəfindən beynəlxalq təlim keçirilir

Mayın 8-də Bakıda Dövlət Turizm Agentliyi (DTA), UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şuranın (ICOMOS) və ICOMOS Azərbaycan Milli Komitəsinin birgə təşkilatçılığı ilə "Ümumdünya irsi peşəkarlarının bacarıqlarının gücləndirilməsi" adlı beynəlxalq təlim proqramı işə başlayıb.

Açılış mərasimində çıxış edən DTA sədrinin müavini Azadə Hüseynova dünya irsi kimi tanınan ərazilərin mühafizəsi və idarə olunmasının xüsusi bacarıqlar tələb etdiyini qeyd edib. Bu baxımdan təlim proqramı dünya irsi obyektlərinin mühafizəsi sahəsində qarşılıqlı öyrənmək, təcrübə mübadiləsi aparmaq üçün mühüm imkan yaradır.



Azadə Hüseynova UNESCO-nun Dünya İrs Siyahısına daxil olan Şəki Xan sarayı və Şəkinin tarixi mərkəzinin DTA tərəfindən idarə olunması, qoruqdakı mədəni-tarixi abidələrin gələcək nəsillər üçün qorunması istiqamətində görülən işlərdən də bəhs edib.

Tədbirdə ICOMOS Prezidenti Teresa Patrisionun görüş iştirakçılarına videomüraciəti təqdim olunub. Qeyd edilib ki, ilk dəfə olaraq ICOMOS təşkilatının dəvəti ilə dünyanın müxtəlif regionlarını əhatə edən 17 ölkədən olan ekspertlər, mədəni irs sahəsində mütəxəssislər Bakıya gəliblər.

Mayın 12-dək davam edəcək tədbir çərçivəsində Dünya İrs Konvensiyasının qayda və prosedurları, o cümlədən UNESCO-nun dünya irs ərazilərinin seçim meyarları, bu ərazilərin idarə olunmasına mənfi təsirlər və risklər barədə müzakirələr və təcrübə mübadiləsi aparılacaq.

Tədbirin praktiki hissəsi UNESCO-nun Dünya İrs Siyahısına daxil olan İçərişəhər qoruğunda, Şirvanşahlar Saray Kompleksində keçirilir.

## Xınalıq kəndinin UNESCO siyahısına salınması məsələsinə baxılacaq

Bu ilin sentyabr ayında "Xınalıq kəndi və Köç yolu"nun UNESCO-nun mədəni irs siyahısına salınması məsələsinə baxılacaq.

Bu barədə məlumat verən Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynova bildirib ki, nominasiya sənədi ilə bağlı xeyli iş görülüb. Nominasiya sənədi UNESCO-nun Dünya İrs Komitəsinə təqdim edilib və qiymətləndirmə ərəfəsindədir. Verilən qərara uyğun olaraq bu ilin sentyabr ayında komitənin iclasında müzakirəyə çıxarılacaq. Nominasiya sənədinin özəlliyi bundan ibarətdir ki, ilk dəfə yerli mütəxəssislər tərəfindən hazırlanıb.

Xatırladaq ki, "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu ölkə başçısının 19 dekabr 2007-ci il tarixli sərəncamı ilə yaradılıb. Qoruqda mədəniyyət və turizm əhəmiyyətli tarixi, memarlıq, arxeoloji, etnoqrafik, numizmatik və digər abidələr yerləşir.

# "Dövlətin memarı..."

## Heydər Əliyevin 100 illiyinə həsr olunmuş xalçaların təqdimatı



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə mayın 5-də İqtisadiyyat Nazirliyi və "Azərxalça" ASC tərəfindən "Dövlətin memarı. Bir ömrün ensiklopediyası" adlı ensiklopedik xatirə xalça kompozisiyasının təqdimatı keçirilib.

Mərasimdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, bu gün dövlətimiz Heydər Əliyevin müəyyənləşdirdiyi yolla gedərək yeni uğurlar qazanır, böyük zəfərlərə imza atır. Bugünkü yaradıcılıq nümunəsi də Ulu öndərin irsinə sadiqliyin, onun xatirəsini daim uca tutmağın ifadəsidir. Təqdimatı keçirilən xalça kompozisiyası Heydər Əliyev irsini və fəaliyyətini ilmələrdə əks etdirir.

İqtisadiyyat naziri xalçaçıların peşə bayramı, 5 may – "Xalçaçı Günü" münasibətilə bu sahədə çalışan hər kəsi təbrik edib, uğurlar arzulayıb.

"Azərxalça" ASC-nin İdarə heyətinin sədri Emin Məmmədov xalça kompozisiyası ilə bağlı təqdimat edib. "Azərxalça"da ərsəyə gələn layihənin həmmüəllifləri – Əməkdar incəsənət xadimi Emin Məmmədov və Əməkdar rəssam Rəşad Ələkbərovdur. Xalça-triptix 2022-ci ilin may ayından etibarən qurumun İsmayıllı emalatxanasında toxunub.

İlk hissədə (1 rəqəmini əks edən) xalçanın kompozisiyasına uyğun olaraq xalqın birliyini və əzəmətini əks etdirən rəmzlər haşiyə motividir. Xalçanın kənar haşiyəsinin konturları Ümummilli liderin ad və soyadının baş hərflərini əks etdirir. Heydər Əliyev və təhsil mövzusu xalçanın birinci hissəsinin əsas mövzularından biridir. Bundan əlavə, həmin hissədə Ümummilli liderin milli musiqimizə olan sevgisi, ən sevdiyi gül – zoğalı rəngli qızılgül, mənəvi zənginlik hesab etdiyi kitablar, məhz onun səyləri və bilavasitə təşəbbüsü ilə inşa olunmuş milli memarlıq nümunələri, mədəniyyətimizin stilizə olunmuş simvolları – tar, kaman, qaval, yallı, armudu stəkanda çay və s. elementlər də öz əksini tapıb.

Milli Ordu quruculuğunun təməlini qoymuş Heydər Əliyevin bu əməyi xalçanın ikinci hissəsində öz geniş əksini tapıb. Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" də xalça üzərində həkk olunub. Ulu öndər həm hakimiyyətə birinci gəlişi zamanı, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə iqtisadiyyatın aparıcı sahələrindən olan kənd təsərrüfatına böyük önəm verilib, aqrar sektorun inkişafı və regionlarda əhalinin rifahı üçün mühüm zəmin yaradılıb. Xatirə xalçasının üzərində Ümummilli liderin bu sahədə fəaliyyəti əksini tapıb.

Triptixin sonuncu və ən əsas hissəsi Heydər Əliyevin xətti (cizgili) portreti əks olunmuş "Keçmiş və gələcək – düşüncələr ayrıcında" adlanır. Burada firavan gələcəyi naminə fədakarlıqla çalışdığı, zəngin tarixi və mənəvi dəyərləri ilə daim fəxr etdiyi xalqının önündə həmişə cəsarətlə addımlayan Heydər Əliyev yüksək bir zirvədən ölkənin bu gününü böyük fəxrlə, gələcəyini isə inamla seyr edir. Xalçanın sərhədlərini müəyyən edən, "Birlik, qardaşlıq və güc" rəmzi sayılan əl-ələ tutmuş qolların həndəsi naxış elementlərinin əhatəsində Ulu öndərin timsalında "İdeal cəmiyyətin simvolu" – ailə görüntüsü verilib. Bu hissədəki alov, ocaq, quşlar – qoruyucu mələklər, bitkilər – bolluq və firavanlıq, qızılgül isə gələcək nəsillərə qayğı və dəstək elementi kimi öz əksini tapıb.

***



Mayın 5-də "Xalçaçı Günü" münasibətilə İçərişəhərdə "Azərxalça"nın nümayiş və satış salonunda da təqdimat təşkil olunub.

"Can Azərbaycan" MMC ilə birlikdə təşkil etdiyi təqdimatda əvvəlcə "Azərxalça" ASC İdarə heyətinin sədri Emin Məmmədov, təqdim olunan xalçanın ideya müəllifi, Əməkdar artist Tahir İmanov çıxış ediblər.

Bildirilib ki, 100x100 ölçüsündəki yun xalça 100 nüsxədə toxunub. Xalçanın üzərində Azərbaycanın bölgələrinə xas xalça növlərinin göstərildiyi xəritə, Ümummilli liderin hər zaman sevə-sevə səsləndirdiyi Səməd Vurğunun "Azərbaycan" şeirindən sətirlər, Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri və onun 3D formatında imzası yer alır.




Olaylar, faktlar (10–12 may)

### 152 il əvvəl...

**10 may 1871-ci ildə** Almaniya və Fransa arasında müharibənin (1870-1871) yekunlarına dair Frankfurt sülhü imzalanıb. Müharibədən qalib çıxan Almaniya Fransanın Elzas və Lotaringiya vilayətlərini özünə birləşdirdi. Birinci Dünya müharibəsindən (1914-1918) sonra Fransa itirdiyi əraziləri geri aldı.

### 106 il əvvəl...

**11 may 1917-ci ildə** Moskvada Ümumrusiya müsəlmanlarının 1-ci qurultayının (1-11 may) yekun sənədləri sırasında Məhəmməd Əmin Rəsulzadənin hazırladığı qətnamə layihəsi qəbul olunub. Qətnamədə Rusiyanın federativ respublikaya çevrilməsi, milli bölgələrə muxtariyyətin verilməsi əksini tapmışdı. İmperiyanın bütün bölgələrini təmsil edən 800-dək nümayəndənin qatıldığı qurultayın rəyasət heyətinə azərbaycanlı Əlimərdan bəy Topçubaşov da daxil idi. Qurultayda Ümumrusiya Müsəlmanlarının Mərkəzi Şurasının yaradılması barədə qərar da qəbul olunub.

### 84 il əvvəl...



**11 may 1939-cu ildə** Uzaq Şərqdə Xalxin-Qol çayı üzərində sovet-monqol və yapon qoşunları arasında döyüşlər başlayıb. Müharibəyə səbəb Yaponiya qüvvələrinin Monqolustanın SSRİ ilə sərhəd bölgələrinə hücumu olmuşdu. Üç aydan çox davam edən döyüşlərdən sonra, avqustun 31-də Yaponiya qüvvələri Monqolustan ərazisini tərk etməli oldular. Rəsmi statistikaya görə, sovet-monqol qüvvələri 20 min nəfər, Yaponiya 60 min nəfər itki vermişdi. Yaponiya ilə bağlanan sülh 1941-1945-ci illər müharibəsi dövründə SSRİ-ni Şərq cəbhəsi sarıdan nisbətən arxayın etmişdi.

### 83 il əvvəl...

**10 may 1940-cı ildə** Hitler Almaniyası Avropanın neytrallıq elan etmiş ölkələrinə – Lüksemburq, Hollandiya və Belçikaya hücum edib. Lüksemburq həmin gün, Hollandiya mayın 15-də, Fransa və Britaniyanın yardım göstərdiyi Belçika isə mayın 28-də işğal olundu.

### 29 il əvvəl...

**12 may 1994-cü ildə** Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş – "Bişkek protokolu" qüvvəyə minib. Tərəflər daha sonra beynəlxalq vasitəçilik sayəsində yekun sülh sazişi imzalamalı idilər. Amma ATƏT-in Minsk qrupu formatında 26 il sürən vasitəçilik nəticə vermədi və 2020-ci ildə Azərbaycan hərb yolu ilə torpaqlarını azad etdi.

### 19 il əvvəl...

**10 may 2004-cü ildə** Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ictimai-siyasi və dövlətçilik irsinin öyrənilməsi və təbliği, bu irsdən bəhrələnərək sosial, xeyriyyə, maarifçilik, mədəniyyət və digər istiqamətlərdə layihələr həyata keçirmək məqsədilə yaradılan Heydər Əliyev Fondu fəaliyyətə başlayıb. Fonda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva rəhbərlik edir.

### 11 il əvvəl...



**10 may 2012-ci ildə** Bakı şəhərində Heydər Əliyev Mərkəzinin açılışı olub. Mərkəzin orijinal memarlıq üslubu olan binası (memar – Zaha Hadid, Böyük Britaniya) Prezident İlham Əliyevin 29 dekabr 2006-cı il tarixli sərəncamına əsasən inşa edilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya** № AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5044. **Sifariş:** 1132
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641